*них к Вам в гости. Какое блюдо вы любите готовить (и есть) больше всего?*

– Готовить я люблю очень и у меня к этому огромная страсть, причем очень люблю угощать друзей, которых всегда у нас дома (не важно в какой стране) много! Причем сам вообщем - то много не ем и стараюсь вести здоровый образ жизни. Готовить люблю и умею практически любую кухню. Но особенно люблю готовить различные пловы наши и левенги, и даже прямо перед Новым Годом был приглашен на Кулинарный поединок в гости к немецкой фирме «БОШ» и потчевал их собственноручно приготовленным левенги из рыбы-кутума!..

***– У Вас замечательная семья: супруга, сын, внучка. Вы - родственные души с любимой женщиной или её натура и Ваша – два полюса? И что на Ваш взгляд интересней?***

– Мы и родственные творческие души и в то же время разнополярные личности… ну вообщем «ЛИЧНОСТИ», а они, то есть личности, как правило плохо уживаются с другими людьми и с друг с другом особенно, но нам интересно вместе и этим все сказано. Мы уже столько лет вместе – 25лет!

***– Рекламные ролики, созданные с Вашим участием, сделаны высокопрофессионально и с неизменной искрой юмора, благодаря чему смотреть их не скучно. Кто из юмористов Вам близок по духу?***

– Мне импонирует тонкий и интелегентный юмор, а не утробный, который сейчас, к сожалению, все более и более господствует!

***– Вы много путешествуете. Какая страна (город) произвели на Вас самое сильное впечатление и почему?***

– Все страны, где я побывал, оказывают на меня колоссальное впечатление – и географическое, и познавательное, и кулинарное – все неразрывно! В разный период - разные страны и города! Сейчас я под впечатлением Стамбула! Какая махина и сколько культурных и исторических слоев переплавлено в этом городе…Он мультикультурен и это потрясает меня в первую очередь!

***– Ваша биография очень неоднозначна. Вы «искали себя», своё место в искусстве, в Вашей жизни были и материальные затруднения, и успех, признание. Какой период Вашей жизни Вам дороже: «поиск себя» или «сытое благополучие»?***

– Ну, по поводу сытого благополучия вы загнули (хотя я полностью согласен с Дали, утверждавшим, что художник должен быть богат!)… А вообще мне дорого в жизни прожитой всё: и трудности, и радости, ведь все проходит, но воспоминания остаются!

***– Будоражит ли Ваши эстетические чувства новый облик строящегося Баку с его футуристическими изысками, или Вам милее его прежняя патриархальность? Считаете ли Вы, что на фоне седой старины и классики модерн выглядит ещё ярче?***

– Мне очень нравится новый Баку из стекла и бетона, но приобретая черты современности он незаметно теряет те отдельные качества, что дороги мне с детства, но это неизбежно!!! В реку времени нельзя войти дважды!

***– Традиционный вопрос – каковы Ваши творческие планы, есть ли сокровенная мечта в этом смысле?***

– Планов громадье: и кино (одно в Канаде, другое – в Новой Зеландии), и реклама, и еще интересно попробовать себя в продюсерстве, и еще и еще!!! Мечта – чтобы все это поскорее сбылось в этом году!

***– Планируете ли в скором времени приехать в Баку?***

– Да, в Баку я приеду в ближайшее время по своему проекту, где будет проходить актерский кастинг и поиск натуры!

***– Каковы Ваши пожелания читателям нашего журнала?***

– Всем читателям хочу пожелать здоровья и удачи, а также терпения и снисхождения в прочтении моих откровений и нравоучений!!!

*Беседу вела: Лейла Джамильзаде*

# NOVRUZUN POETİK TƏRƏNNÜMÜ

**Vaqif Məmmədov,**

*tarix elmləri üzrə fəlsəfə doktoru,*
*Azərbaycan Yazıçılar Birliyinin üzvü*



Klassik poeziyamızın Nizamidən üzü bu yana olan nümunələrində Novruz bayramı haqqında şairlərimiz öz sözlərini demişlər. Ayrı-ayrı şeir nümunələrində Novruz bayramı haqqında verilən təsvirlərdə Novruzun mahiyyəti, onun astronomik simvol kimi il təqvimində tutduğu yer, bu bayramın gəlişiylə təbiətin oyanması, torpağın cana gəlməsi, suya, havaya verilən yeni çalar, təbiətdə baş verən digər hadisələr, müxtəlif dövrlərdə bayram fonunda cəmiyyətin ictimai mövqeyinin təsviri və s. məsələlər öz əksini tapır.

Klassik poeziyamızın ən parlaq simalarından olan Nizami Gəncəvi Novruz bayramı günlərində havanın tamam özgə hava olduğunu, gülə-çiçəyə özgə bir hal, özgə bir gözəllik verildiyini, bununla da aləmin nura boyandığını təsvir edir:

Novruz havasında olan etidal
Aləmə bəxş etdi nurani bir hal.
Novruzun nəsimi yeni əhd ilə
Qatdı öz canını çiçəyə, gülə.

XIV əsrin məşhur şairi və siyasi xadimi Qazi Bürhanəddin hansı bir hissin təsirindənsə dünyanı çox şad-xürrəm və münəvvər görür. Dünyanın onun gözünə belə görkəmdə görünməsi şairi şübhələndirir və onun qənaəti bu olur ki, yəqin Novruz bayramı gəlibdir ki, aləm belə gözəlləşibdir. Novruzdan başqa heç nə dünyanı belə dəyişə bilməz. Novruzdan başqa heç nə cahanı belə münəvvər edə bilməz:

Məgər Novruz gəlmişdür müsəvvər
Ki, olmuşdur cahan yenə münəvvər...

Ədəbiyyatımızın əzəmətli sütunlarından olub klassik poeziyamızda «qəlb şairi» kimi tanınan Məhəmməd Füzuli özünün «Nobahar oldu, cahanın yenə xoş dəmləri var» adlı qəsidəsində təbiətdə baş verən dəyişiklikləri yüksək poetik dillə təsvir edəndən sonra Novruz ərəfəsində təbiətin cansız otlara necə can verdiyini, yaşıl çəməndə açan güllərin-çiçəklərin od kimi-məhşər kimi yandığını göstərir:

Yenə cansız ota can verdi təbiət təzədən,
Səfheyi-səhni çəmən aləminin məhşəri var.

Şah İsmayıl Xətai özünün «Dəhnamə» əsərinin «Bahariyyə» fəslində ilin dəyişməsi, baharın gəlməsi ilə əlaqədar nəinki təkcə bitkilərin oyanmasını, torpağın, havanın dəyişməsini, güllərin-çiçəklərin yeni rayihədə olmasını, quşların, digər canlıların da Novruza görə fərqli hərəkətlərini təsvir edir. Ümumiyyətlə Xətainin

Qış getdi, yenə bahar gəldi,
Gül bitdivü laləzar gəldi.
Quşlar qamuşu fəğanə düşdü,
Eşq odu yenə bu canə düşdü

misraları ilə başlanan «Bahariyyə» şeirində Novruz günlərində təbiətdə olan bütün dəyişikliklər tam dolğunluğu ilə öz əksini tapır.

M.P.Vaqifin diqqətini Novruz bayramında təbiətdəki dəyişikliklər yox, cəmiyyətdəki ictimai məsələlər, iqtisadi problemlər cəlb edir. Çünki el adətinə görə Novruz baramında hamı-varlı da, yoxsul da ocaq qalayıb qazan asmalı, ailəni sevindiməlidir. Ancaq şair kasıb Azərbaycan kəndlisinin bayram günündə acınacaqlı güzəranından ürək ağrısı ilə söhbət açır və onun vəziyyətini belə təsvir edir:

Bayram oldu, heç bilmirəm neyləyim,
Bizim evdə dolu çuval da yoxdur.
Dügiylə yağ hamı çoxdan tükənmiş,
Ət heç ələ düşməz, motal da yoxdur.

Eyni zamanda, M.P.Vaqif Novruz mərasiminin təsviri fonunda həmin kasıb kəndlinin dünyagörüşünü, həyata baxışını da açıb göstərir və kəndlinin qənaəti bu olur ki, Allaha naşükür bəndə olduğundan bu kasıblıq onun nəsibi olmuşdur:

Allaha bizmişik naşükür bəndə,
Bir söz desəm dəxi qoymazlar kəndə.
Xalq batıb noğula, şəkərə, qəndə,
Bizim evdə axta zoğal da yoxdur.

Xalq ruhuna uyğun şeirləri dillər əzbəri olan Molla Vəli Vidadi də Novruz sevincindən cahanın təzə-tər rəngə boyanmasını, bu xəbərin ellərə yayılaraq bütün qəmləri, kədəri oda yandırmasını təsvir edir:

Novruzi-bahar oldu, cahan təzə-tər oldu,
rəf oldu ələmlər.

Dağıldı bu şadlıq xəbəri, dərbədər oldu,
yandı oda qəmlər.

Milli adət-ənənələrimizə uyğun olaraq lap qədim zamanlardan bayram günlərində hamının şad-xürrəm olması, küsülülərin barışması, bütün umu-küsülərin unudulması diqqət mərkəzində olmuşdur. Hətta, adətə görə qəm-kədər üz verəndə belə bayram günü qəmli oturmaq, qüssə çəkmək olmaz. Elə buna görə, Novruz bayramında nazəninlər içində öz sevgilisini bikef görməsi Q.B.Zakiri təəccübləndirir:

Bu gün, bayram günü səhni-çəməndə
Gördüm nazəninlər xürrəm oturmuş.
Mənim yarım nə danışıb, nə dinir,
Onların içində əbsəm oturmuş.

Belə bir ifadə var ki, Novruz bayramında öz evində olmayan yeddi il evində olmur. Buna görə də, Q.B.Zakir digər bir şeirində bayram günü ən yaxın və doğma adamları ilə bir yerdə olanları tanrı yanında da ən bəxtəvər adamlar hesab edir:

Bu bahar fəslində, gül mövsümündə,
Hər kimin ki, ola yarı yanında.
Bürci-Əsəddədir kövkəbi-bəxti,
Bil ki, bəxtəvərdi Tanrı yanında.

S.Ə.Şirvani də Novruz bayramı günlərində çöl-çəmənin nura boyandığını, bülbüllərin, qumruların nəğmələrinin cahanı tutduğunu, bənövşənin, lalənin, süsənin bir-birinə həmdəm olduğunu və aləmin behiştə bənzədiyini göstərmişdir.

Satirik şeirimizin bayraqdarı olan M.Ə.Sabir də «Novruz» mövzusuna biganə qalmamış, bu bayrama ictimai-siyasi nöqteyi-nəzərdən yanaşmışdır. M.Ə.Sabir «Bayram töhfəsi» şeirində elə bir mövqedə durur ki, hər şeyi bolluca olub harınlayan insanlarla, bayram günü öz övladı yanında xəcalət çəkən fəqir bəndələr qarşılaşırlar. Həm də şair bu ictimai bəlada konkret qənaətə gəlmir, məsələnin obyektiv həllini oxucunun öhdəsinə buraxır:

Ey tökən mollaların
kamına şərbət, Novruz,
Əqniyalarla quran
məclisi-işrət, Novruz,
Səndə hər kəs sevinir,
bəs niyə ancaq füqəra
Çəkir övladını
gördükdə xəcalət Novruz?..

«Novruz» mövzusu Aşıq Ələsgər poeziyasından da qırmızı bir xətt kimi keçmiş, o, bir neçə şeirində bu bayram haqqında xalq dilində geniş söhbət açmışdır. «Can desin» şeirində:

Novruzda bahara deyərlər bəli,
Gah kamala yetər, gah olar dəli.
Gün vuranda güneylərdən sel gəli,
Quzey istər zimistana can desin-deyən Aşıq

Ələsgər «Olmuşam» şeirində bayram günü hamının şad olmasını göstərməklə, dərd əlindən özünün qəmgin olması ilə «kafər olduğunu» etiraf etməkdən də çəkinmir:

Dar günümdə qohum-qardaş yad olu,
Məğrurluq eyləyən namurad olu,
Bayram günü islam olan şad olu,
Mən qəmgin olmaqda kafər olmuşam.

Taleyi bayram əhval-ruhiyyəsindən çox-çox uzaq olan böyük şairimiz Hüseyn Cavid də özünün «Azər» poemasında Novruzun gəlişi ilə yaranan gözəl təbiət mənzərələrindən söhbət açmışdır:

Bayramdı...Günəş incə buludlar arasından
Ətrafa saçıb işvə gülümsərdi təbiət.
Pürnəşə baharın əriyən busəsi hər an
Səhralara, ormanlara sərpərdi təravət.

Sabirin müasiri A.Səhhət Novruz bayramını təqvimin dəyişilməsi nəzərə alınmaqla, dəqiq tarixi ilə göstərmiş və Novruz günlərində təbiətdəki hadisələrdən çox rəvan bir dillə söhbət açmışdır:

Gəldi martın doqquzu,
Bayram etdik Novruzu.
Qar əridi yox oldu,
Çaylarda su çox oldu.

Böyük dramaturq C.Cabbarlı da Novruz bayramına ayrıca şeir həsr etmiş, «Novruz bayramına hazırlaşan müsəlmanlara töhfə» adlı həmin şeirində xalqın güzəranının ağır olduğunu təsvir etsə də, bayrama görə hamının şadlıq etdiyini bildirmişdir:

Bax, bu yanda gör tərənnümsaz olur sazəndələr,
Ax, nə xoş rəqs eyləyib əl oynadır rəqqasələr.
Ax, nə diqqətlə tamaşa eyləyir bu çeşmlər,
Ax, nə xoş kəskin şəfəq saçmaqdadır əlmaslar.

Novruz bayramında xalqımızın etnoqrafiyasını, adət-ənənələrimizi Şəhriyar qədər rəvan və axıcı təsvir edən olmamışdır:

Bayram idi gecəquşu oxurdu,
Adaxlı qız bəy corabı toxurdu.
Hər kəs şalın bir bacadan soxurdu,
Ah nə gözəl qaydadır şal sallamaq,
Bəy şalına bayramlığın bağlamaq.

Novruz baharın gəlişidir. Təbiət adlı gözəl bir qızın oyanmasıdır, şeirin-sənətin gözünün nurudur... Elə buna görə də, Səməd Vurğun yazırdı:

Bahar, istəklimsən başdan, binadan,
Ən gözəl qızısan sən təbiətin.
Xoşbəxt yaranmısan xoşbəxt anadan,
Gözünün odusan şerin, sənətin,
Ən gözəl qızısan sən təbiətin.

Ulu Nizamidən Səməd Vurğuna qədər olan dövrdə klassik poeziyamızda Novruz bayramı haqqında söz ustalarımızın şeirləri olduğu kimi, müasir poeziyamızın görkəmli nümayəndəlri də Novruzu tərənnüm etmiş, bu mövzuda yaddaqalan poeziya nümunələri yaratmışlar.

## YƏMƏNİN YENİ PREZİDENTİ

*Əbdurəbb Mənsur Hadi Yəmənin yeni Prezidenti seçilmişdir*



Yəmən Ali Seçki Komissiyasının sədri Məhəmməd Hüseyn əl-Həkimi fevralın 24-də bildirmişdir ki, fevralın 21-də keçirilmiş növbədənkənar prezident seçkilərində seçicilərin 99,8 faizi yeganə namizədə səs vermişdir. Ümumxalq səsverməsində seçicilərin 65 faizi iştirak etmişdir.

Yəmənin yeni prezidenti fevralın 25-də parlamentin deputatları qarşısında and içmiş, fevralın 27-də isə andiçmə mərasimi keçirilmişdir. Mərasimdə Yəmənə 33 il rəhbərlik etmiş Əli Abdulla Saleh dövlət başçısı səlahiyyətlərini rəsmən varisinə ötürmüşdür.

## FRANSANIN KONSTİTUSİYA ŞURASINDAN ERMƏNİLƏRƏ ZƏRBƏ

*Fransanın Konstitusiya Şurası soyqırımına dair qanunu ləğv etsə də, Nikola Sarkozi yeni qanunla bağlı mətn hazırlanması barədə göstəriş vermişdir*



Fransa Konstitusiya Şurası fevralın 28-də Milli Assambleyanın ötən il dekabrın 22-də qəbul etdiyi və yanvarın 23-də Senat tərəfindən təsdiqini tapan qondarma "erməni soyqırımı"nı inkar edənlərin cinayət məsuliyyətinə cəlb olunması barədə qanunu müzakirə etmiş və onun Fransa Konstitusiyasına zidd, söz və fikir azadlığına qarşı yönəlmiş qanun olduğunu nəzərə alaraq, ləğv olunması barədə qərar qəbul etmişdir.

Yelisey sarayının mətbuat xidməti Fransa Prezidenti Nikola Sarkozinin Konstitusiya Şurasının qərarından təəssüf hissi keçirdiyini bəyan etmiş, eyni zamanda Konstitusiya Şurasının soyqırımına dair qanunun ləğvinə etiraz əlaməti olaraq, yeni bir qanunun mətninin hazırlanması barədə göstəriş verdiyini bildirmişdir.

Fransa Konstitusiya Şurasının məlum qərarı ləğv etməsi ermənilərin canfəşanlığına son qoymaqla yanaşı, onsuz da onların dünya ictimaiyyəti qarşısında getdikcə nüfuzdan düşən imicinə ağır bir zərbə olmuşdur.

## BİR QARIN TOX, BİR QARIN AC...

*Hindistanın Baş naziri doyunca yeməməyi milli rüsvayçılıq adlandırmışdır*



Yarıac-yarıtox dolanmaq Hindistanın milli rüsvayçılığıdır. Bu fikri Hindistanın Baş naziri Manmohan Sinqh səsləndirmişdir. Baş nazirin bu bəyanatı ölkənin 9 ştatında aparılmış tədqiqatların nəticələrinə əsaslanır. Sürətli iqtisadi yüksəlişə baxmayaraq, doyunca yeməmək problemi hələ də çox kəskindir.

Tədqiqat məlumatına görə, Hindistanda beş yaşında uşaqların 42 faizi çəkinin azlığından əziyyət çəkir.

## «ERİCSSON» ŞİRKƏTİNİN AÇIQLAMASI

*Ötən il dünyada mobil telefon abunəçilərinin sayı 6 mlrd-a çatıb*

Bu barədə İsveçin «Ericsson» şirkətinin analitiklərinin apardığı hesablamalarda bildirilir.

ERICSSON
TAKING YOU FORWARD

Dünya sakinlərinin 60%-i mobil telefon istifadəçisidir. Bu rəqəm mobil rabitə abunəçilərinin real sayının göstəricisidir. Belə ki, bəzən istifadəçi eyni vaxtda bir neçə operatorun abunəçisi olur.

«Ericsson»un hesablamalarına görə, il ərzində abunəçilərin sayı orta hesabla 13% artır və artımın qeydə alındığı lider ölkələr sırasına Hindistan və Çin daxildir. Eyni zamanda, ilk beşlikdə Braziliya, İndoneziya və Banqladeş də var. Dünya abonentlərinin 75%-ə yaxını GSM-dən, 15%-i 3G/HSPA rabitə standartından yararlanır.

İl ərzində genişzolaqlı mobil internetdən istifadə edənlərin sayı təxminən 60% artıb və hazırda onların sayı 1 mlrd-a yaxındır.

## ANKARADA 1500 İL YAŞI OLAN İNCİL TAPILDI

*Ankara şəhər Məhkəməsinin binasında qədim "İncil" kitabı tapılıb*

Əmanətlərin saxlandığı yerdə tapılan müqəddəs kitabın 1500 il yaşı var. Kitab 2000-ci ildə Türkiyəyə qaçaqmalçılıq yolu ilə gətirilib və məhkəmə tərəfindən müsadirə olunaraq saxlanılıb. Həmin vaxtdan kitab unudulub və bu yaxınlarda yenidən aşikar edilib. Məlumatda bildirilir ki, 1500 il yaşı olan kitabın ilkin dəyəri 40 milyon türk lirəsidir (20 milyon manata yaxın). Artıq Vatikan "İncil"i geri almaq üçün hərəkətə keçib.

## 203 İL SONRA TAPILMIŞ XƏZİNƏ

*İspaniya yarım milyard dollar məbləğində sərvəti ABŞ-dan almışdır*



Yarım milyard dollar dəyəri olan qızıl və gümüş sikkələr uzun sürən məhkəmə çəkişmələrindən sonra hərbi təyyarə ilə ABŞ-dan İspaniyaya gətirilmişdir.

Cəbəlüttariq körfəzində 1804-cü ildə batmış və 2007-ci ildə ABŞ-ın dərin sularda axtarışlarla məşğul olan "Odyssey Marine Exploration" şirkəti tərəfindən tapılmış İspaniyanın "Nuestra Senora de las Mercedes" freqatında bir ton qızıl və gümüş aşkar edilmişdir.

Bu xəzinə indiyədək su altında aşkar edilən ən qiymətli tapıntıdır. İspaniya hökuməti xəzinəaxtaranlarla 5 il məhkəmə çəkişməsi aparmışdır. ABŞ məhkəməsi "Odyssey" şirkətinin bütün iddialarını, o cümlədən xəzinəni saxlamaq üçün xərclədiyi 413 min dolları ödəmək tələbini rədd etmişdir.

Məhkəmə qərarına görə, xəzinənin olduğu gəmini kimin tapdığından və harada saxlanmasından asılı olmayaraq, varidat mənsub olduğu ölkəyə qaytarılmalıdır və qərar icra olunmuşdur.

## DÜNYANIN ƏN ZƏNGİN ÖLKƏLƏRİ

*Adambaşına düşən ümumdaxili məhsulun (ÜDM) həcminə görə Qətər dünyada ilk yerdə qərarlaşmışdır*

Əhalisinin sayı 1,7 milyon nəfər olan zəngin karbohidrogen resurslarına malik Qətər neft və qazın qiymətinin artması sayəsində adambaşına düşən ÜDM-in səviyyəsinə görə dünyanın ən zəngin ölkəsi statusuna yiyələnmişdir. Qətərdə adambaşına 88 min dollar ÜDM düşür. Qətəri adambaşına 81 min dollar ÜDM-lə Lüksemburq təqib edir. Uzaq Şərqin texnologiya, istehsal və maliyyə nəhəngi Sinqapur 56 min 700 dollar göstərici ilə üçüncü sıradadır.

Sonrakı yerlərdə Birləşmiş Ərəb Əmirlikləri, Norveç, Bruney, AbŞ, Honq Konq, İsveçrə, Hollandiya gəlirlər.

## ÜÇÜNCÜ DƏFƏ PREZİDENT

*Vladimir Putin Rusiya Mərkəzi Seçki Komissiyasının məlumatına əsasən martın 4-də keçirilmiş seçkilərin nəticələrinə görə 63,60% səs toplayaraq, Rusiya Federasiyasının prezidenti seçildi*



Vladimir Vladimiroviç Putin1952 -ci il oktyabrın 7-də Rusiyanın Leninqrad (Sankt-Peterburq) şəhərində anadan olub. Leninqrad Dövlət Universitetinin hüquq fakültəsini bitirib. 1975-ci ildən SSRİ DTK-da xidmətə başlayıb. Bir müddət Almaniyada işləmişdir. 1989-cu ildə istefaya çıxaraq, Leninqrad Dövlət Universitetində işləyib. Sonra Moskvada işə keçərək, Rusiya Prezidenti Administrasiyasının rəhbəri vəzifəsinədək yüksəlmiş, baş nazir vəzifəsində çalışmışdır. 7 may 2000-ci ildən 7 may 2008-ci ilədək Rusiya Federasiyasının ikinci prezidenti. (Prezident Boris Nikolayeviç Yeltsinnin istefasından sonra 31 dekabr 1999-cu ildən 7 may 2000-cu ilədək Prezident vəzifəsini icra edib) olmuşdur. Sonra baş nazir vəzifəsinə təyin edilmişdir. Prezidentlik səlahiyyətini təhvil alanadək bu vəzifəsini icra edəcəkdir.

Vladimir Putin 1983 -cü ilin iyulunda Lyudmila Aleksandrovna ilə evlənib. İki qızları var : Mariya 1985-ci ildə Leninqradda, Katerina 1986-cı ildə Drezdendə anadan olublar. Mariya Sankt-Peterburq Dövlət Universitetinin bioloji-təbiət, Katerina isə şərq fakültəsini bitiriblər.

## PLANETİN ƏN VARLI SAKİNLƏRİ

*Karlos Slim növbəti dəfə dünya milyarderlərinin reytinqinə başçılıq edir*



"Bloomberg" agentliyi dünyanın ən varlı 20 adamının siyahısını açıqlayıb.

Siyahıya 68,5 mlrd. dollarlıq varidatı ilə meksikalı biznesmen Karlos Slim başçılıq edir.

"Microsoft" korporasiyasının banisi Bill Geyts ikinci yerdədir - 62,4 mlrd. dollar. İlk üçlüyü "Berkshire Hathaway" şirkətinin rəhbəri, sərmayəçi Uorren Baffet (ABŞ) 43,8 mlrd. dollarlıq sərvətlə tamamlayır.

IKEA mebel mağazaları şəbəkəsinin qurucusu İnqvar Kamprad 42,5 mlrd. dollarla dördüncü, fransalı sahibkar Bernar Arno 42,3 mlrd. dollarla beşinci pillədə dayanır.



## ƏN ÇOX QIZIL ALAN ÖLKƏLƏR

*Ötən il dünyada ən çox qızıl alan ölkələrin adları açıqlanıb*



İlk üçlükdə Hindistan, Çin və ABŞ qərarlaşıb. Sonrakı yerlərdə Almaniya, Türkiyə, İsveçrə, Tailand, Vyetnam, Rusiya və Səudiyyə Ərəbistanı gəlir.

Eyni zamanda, 2011-ci ildə qızıla olan tələbat son 14 ildə tarixi maksimuma çatıb - 4067 ton. Ümumdünya Qızıl Şurasının məlumatına görə, dövlətlər bu həcmdə qızıl almaq üçün 205 mlrd. dollar vəsait xərcləyiblər.

Ötən il 1 unsiya qızılın orta qiyməti illik müqayisədə 28% artaraq 1571,5 dollara çatıb. "Thomson Reuters"in proqnozuna əsasən 2013-cü ilin əvvəlində bu göstərici 2 min dollara yüksələcək.

Qızılın 2009-2011-ci illərdə bahalaşmasının əsas səbəbi kimi Çin və Hindistan əhalisinin artan tələbatı göstərilir. Bundan başqa, adı çəkilən ölkələrin Mərkəzi Bankları da bu qiymətli metala böyük maraq göstərir.

# İSVEÇ ALİMLƏRİNİN HAZIRLADIĞI YENİ KOMPÜTER PROQRAMI

*İsveçin Qutenberq Universitetinin alimləri daha yüksək intellekt səviyyəsinə malik olan yeni kompüter proqramı hazırlamışlar*

Proqram intellektual inkişaf (İQ) üzrə testləri 150 baldan yuxarı nəticə göstərməklə daha yaxşı həll edir. Qeyd edək ki, bu günə kimi kompüter proqramları İQ testlərini həll edərkən maksimum 90-100 bal arasında nəticə nümayiş etdirmişdilər.

Azərbaycan Milli Elmlər Akademiyasının İnformasiya Texnologiyaları İnstitutundan AzərTAc-a bildirmişlər ki, *popnano.ru* saytının məlumatına görə, proqram insan kimi öyrənmək, yeni ardıcıllıqları və asılılıqları bilmək kimi xüsusiyyətlərə malikdir.

Proqram düzgün cavabları oxşar vəziyyətlərdə adi insanın etdiyi kimi məntiqi təfəkkürlə tapmağa çalışır. Digərləri ilə müqayisədə bir qədər ləng işləsə də, 170 mümkün baldan 150-ni yığa bilir ki, belə nəticəni planet əhalisinin yalnız 4 faizi ala bilər.

Alimlər bildirmişlər ki, onların hazırladıqları proqram riyaziyyat üzrə adi kompüter əlavələrindən daha qabaqcıldır, çünki proqram riyaziyyat və psixologiyanı bir araya gətirir. "Biz təkcə riyazi biliklərin yox, həm də baş verənlərin təhlili bacarığının da əsasını qoymuşuq."

Proqram daha geniş imkanlara malikdir. Müəyyən alqoritmlər əsasında hava proqnozu və insanların psixologiyasından güclü şəkildə asılı olan fond bazarının gedişatı barədə də qabaqcadan xəbər verə bilər. İsveç alimləri ümid edirlər ki, gələcəkdə onlar təfəkkürün alternativ metodlarında sıçrayış edərək, insan kimi düşünən robotun yaradılmasına da nail olacaqlar.

# SƏSİ TANIYAN TƏRCÜMƏÇİ

*Tərcüməçi proqramına istifadəçinin səsi ilə danışmağı öyrətmişlər*

Microsoft korporasiyasının tədqiqat bölməsi səsi tanıyan innovasiya texnologiyalı tərcüməçi işləyib hazırlamışdır. *Technology Review* xəbər verir ki, proqram nitqi sintez edərək, onu istifadəçinin səsi ilə başqa dildə səsləndirməyi bacarır.

Layihənin rəhbəri Frenk Sun qeyd etmişdir ki, "ağıllı" tərcüməçi əvvəlcə nitqi mətnə çevirib tərcümə edir, sonra isə istifadəçinin səsi ilə onu səsləndirir. İstifadəçiyə başqa dildə danışmağı öyrətmək üçün proqrama səs nümunələri əldə etməsi üçün təqribən bir saat vaxt lazım olur.

Hazırda tərcüməçi 26 dil, o cümlədən ispan, italyan, ingilis və çin dilinin mandarin dialektini bilir. Sunun sözlərinə görə, Microsoft korporasiyasının yeni texnologiyası səyahətə çıxanlar və xarici dil öyrənən insanlar üçün faydalı olacaqdır, o, yeni sözləri düzgün tələffüz etməyi öyrədəcəkdir.

Sun həmçinin smartfonlar üçün yol nişanlarında Çin dilində olan yazıları ucadan oxuya bilən naviqasiya əlavəsini misal göstərmişdir.

# YENİ TƏHLÜKƏSİZLİK TEXNOLOGİYASI

*Ürək döyüntüləri vasitəsilə parolları əvəz etmək mümkün olacaq*

Tayvanın bir qrup alimləri hər insanın ürək döyüntüsünün unikallığından istifadə etməklə yeni təhlükəsizlik texnologiyası hazırlayıblar. Bu texnologiya sayəsində barmaqlarla xüsusi sensor səthə toxunaraq kompüteri işə salmaq, ev və ya maşının qapısını açmaq mümkün olacaqdır.

Sistem insanın ovuc içinin elektrokardioqram məlumatlarını oxuyaraq, ürək döyüntüsünün "rəqəmsal imza"sını yaradır. Sonra aparat və proqram alqoritmlərindən istifadə etməklə imza məlumatları unikal açar şifrələmə sisteminə çevrilir. İnsanların ürək döyüntüsü bir-birindən fərqli olduğundan hər dəfə unikal açar alınır ki, belə açarların kriptoloji dayanıqlılığı olduqca yüksəkdir.

Qurğuya barmaqla səthi toxunaraq, diskdəki məlumatları emal etmək mümkün olacaqdır. Bundan başqa, qurğudan təhlükəsizlik sistemlərində, məsələn, şəxsiyyətin tanınmasında, eləcə də ev və avtomobil açarı kimi istifadə oluna biləcəkdir.

Azərbaycan Milli Elmlər Akademiyasının İnformasiya Texnologiyaları İnstitutundan AzərTAc-a bildirmişlər ki, *popnano.ru* saytının məlumatına görə, tədqiqatçıların son məqsədi xarici sərt disklər üçün ideal kriptoqrafik müdafiə sistemi yaratmaqdır.



# RASİM BALAYEV: "SEVƏNLƏR ÜÇÜN HƏR GÜN SEVGİLİLƏR GÜNÜ OLMALIDIR"

*Lent.az-ın "Məşhurların sevgi etirafları" layihəsinin növbəti qonağı Azərbaycanın sevilən və tanınan kino aktyoru, Kinematoqrafçılar İttifaqının birinci katibi, xalq artisti Rasim Balayevdir. Onunla görüşümüz fevralın 14-də - dünyanın əksər yerlərində Müqəddəs Valentin, yaxud Sevgililər Günü kimi qeyd olunan günə düşdü.*

**- Rasim müəllim, nə vaxtsa Sevgililər gününü qeyd etmisiniz?**

- Yox, qeyd etməmişəm. Bu günü, əsasən, xristian ölkələrində qeyd edirlər. Əvvəllər bizdə də çox qeyd olunurdu. Amma sonradan iyunun 30-nu - İlham və Fərizənin toy gününü qeyri-rəsmi şəkildə Azərbaycanın Sevgililər Günü elan etdilər. Məncə, düzgün seçimdir. O hadisəni eşidəndə mən çox sarsılmışdım. Əsl məhəbbət, bax, budur. Ümumiyyətlə isə Sevgililər günü bir-birini sevən iki şəxs üçün əlamətdar bir gündür. Təbrikləşirlər. Hədiyyə almaq üçün də bir bəhanədir (gülür). Amma sevənlər üçün hər gün sevgililər günü olmalıdır. Hər kəsə arzu edirəm ki, sevgiləri həqiqi, təmənnasız olsun. Bəzən niyyətli "sevgilər" olur. Qoy saf sevgi ilə qarşılaşsınlar.

**- Bəs siz saf sevgi ilə nə vaxt qarşılaşmısınız?**

- 21 yaşımda... Əsl, saf məhəbbətlə qarşılaşdım və ailə qurdum. Artıq 42 ildir evliyəm. Bayaq bir neçə kitab vərəqlədim. Nizaminin məşhur "Eşqdir mehrabı uca göylərin, eşqsiz, ey dünya, nədir dəyərin" şeiri eşqin tərifini verib. Mən heyvanat aləmi ilə çox maraqlanıram. Sənədli təbiət filmlərinə baxmağı xoşlayıram. Ora baxanda adam dəhşətə gəlir. O gün baxıram ki, iki dağ keçisi bir "sevgili" uğrunda vuruşur. Hansı qələbə çaldısa, "sevgili" də onun oldu. Çox qəribə şeydir. Hətta qarışqa da yumurtanı məhəbbətlə qoyur. Odur ki, dünya başdan-ayağa məhəbbət üzərində qurulub və onu idarə edən də elə sevgidir. Sevgisiz yaşamaq mümkün deyil. Bir var şəhvani hisslər, bir də var əsl məhəbbət. Bilirsiniz, əvvəl məhəbbət olur, sonra övladlara, nəvələrə keçir, sonra isə qarşılıqlı hörmətə çevrilir. Yəni, daha əvvəlki çılğın məhəbbət olmur. O məhəbbəti saxlamaq da mümkün deyil. Sevgi bölünür və formasını dəyişir. O ailədə ki qarşılıqlı hörmət var, onun ömrü də uzun olur. Bir də, mənim üçün sənətə olan məhəbbət də əsasdır. Bu gün yaxşı sənətkarların sayı azalıb. Mənə elə gəlir ki, bu, sənətə eşqin olmaması ilə bağlıdır. Heç uzağa getməyin. Elə bizim vaxtımızda sənətə olan sevgi bu gün yoxdur, mən görmürəm. Ona görə, də yaxşı sənətkarlar az yetişir. Seçdiyin sənətə vurğunluq olmasa, o sənət sənət deyil.

**- Əksər müsahiblərim ilk məhəbbətlərinin orta məktəb müəllimələrinə qarşı olduqlarını deyiblər. Sizin ilk məhəbbətiniz kim olub?**

- Mən müəlliməmi sevməmişəm. Amma qonşuluğumuzda bir qız vardı. Ona aşiq olmuşdum. Təxminən 8, ya 9-cu sinifdə oxuyardım. Qız da məndən bir neçə sinif aşağıdaydı. Düzdür, rayon yerində qıza yaxınlaşıb söz demək mümkün deyil. Çünki hamı bir-birini tanıyır, hörmət, ismət var. Amma məsələn, məktub göndərə bilərdim. Onu da eləmədim. Eləcə uzaqdan-uzağa baxırdım. Məktəbdən elə vaxtda çıxırdım ki, o, dərsdən çıxanda görüm. Bax, beləcə, uzaqdan-uzağa... Sonra məktəbi qurtardım, instituta qəbul olundum. Amma o qız haqqında xeyli düşündüm.

**- Sonra da ona heç nə demədiniz?**

- Yox, demədim. O heç bilmədi ki, mən onun haqqında düşünürəm (bu məqamda üzr istəyərək, bir siqaret yandırır).

**- Niyə hisslərinizi ona açıq şəkildə bildirmədiniz?**

- Nəsə utandım, çəkindim. Nə bilim... Elə bilirlər aktyorlar üzlü adamlar olur. Mənsə xarakter etibarilə elə adam deyiləm.

**- Bəs susduğunuza görə peşman olmadınız?**

- Əvvəl peşman idim ki, niyə öz hisslərimi bildirmədim. Amma birinci kursda oxuyanda eşitdim ki, o qız başqasına ərə getdi, toyu oldu. Və fikirləşdim ki, mənlik deyilmiş. Mənim evlənən vaxtım deyildi axı. O vaxt ailə qurmaq mənim üçün tez olardı. Deməli, o sadəcə ilk məhəbbət imiş və yaxşı da oldu ki, gizlətdim, heç nə demədim. Sonra ona bəslədiyim hisslər də keçib getdi. Amma o qız indi də mənim yadımdadır.

**- Ondan sonra başqa məhəbbətiniz olmadı?**

- Yox. İnstitut illərində elə bir sevgi macəram olmadı. İnstitutu qurtaran il isə sevdiyim xanımla ailə qurdum. O xanım həm də mənim əmim qızıdır. Əvvəl mənim üçün sadəcə əmiqızı idi. Sonra ona qarşı məhəbbət yarandı və institutu qurtaran kimi evləndim.

**- Yəqin, ailənizin ürəyincə olardı bu izdivac. Çünki əksər ailələr qohumla evlənməyin tərəfdarıdır.**

- Yox, əksinə. Əvvəl hər ikimizin ailəsi evlənməyimizə razı deyildi. Deyirdilər, onsuz da qohumuq da. Amma biz onları təhrik etdik. Görəndə ki, həqiqətən bir-birimizi istəyirik, mane olmadılar. 22 yaşımda evləndim. 24 yaşında isə "Nəsimi" filminə çəkildim. Onda mən artıq iki oğul atasıydım.

**- Bildiyimə görə, məşhur olacağınızı sizə bir falçı deyibmiş...**

- Hə. Çox çətin vaxtlarım idi. İşlərim alınmırdı. Mən teatrda işləmək istəyirdim. Özü də "Azdrama"da. Onda məni ora götürmədilər. Evim də yox idi, kirayə qalırdıq. Həm Tədris Teatrında işləyirdim, həm də institutda saat hesabı dərs deyirdim. Tədris Teatrında Ramiz adlı bir oğlan vardı. Dedi ki, "qardaşım Rusiyaya əsgərliyə gedib və yox olub. Nə ölüsü var, nə dirisi. Təzə bazarın alt tərəfində bir məhlədə yəhudi qadın var, baxıcıdır. Gəl, gedək onun yanına. Mən getmək istəyirəm, amma tək getməyim. Sən də mənimlə gəl". Yəni, mən ona yoldaşlıq etdim. Getib gördük ki, növbədir. Təxminən 20-30 qadın gözləyir. İkimizdən başqa kişi xeylağı yoxdur. Bizi növbəsiz içəri buraxdı. Özü də qayıtdı ki, "mənim yanıma adətən qadınlar gəlir, kişilər az olur. Ona görə də, kişilər gələndə onları növbəsiz buraxıram". Adı Dunya, ya da Dusya idi. Qısa əlləri vardı. Kartları yanındakı qızlar qarışdırıb düzürdülər. Özü isə əlindəki çubuqla kartları çevirirdi. Ramiz buna dərdini danışdı. Karta baxıb dedi ki, "sənin qardaşın sağdır, ölməyib, amma sən onu heç vaxt görməyəcəksən". Sonra qayıtdı ki, "bu cavan oğlanın nəyi var? Day gəlmisən də. Gəl sənə də baxım". Mən də inamsız şəkildə dedim "bax da". Çox söhbətdən sonra mənə üç şey dedi. Dedi "sən çox məşhur adam olacaqsan. Özü də bu yaxınlarda". İçimdə fikirləşdim ki, yalandır, əlbəttə. Çünki onda arabir televiziyaya çıxıb şeir deyirdim ancaq. Sonra



dedi "çox tezliklə ev alacaqsan". Buna ümumiyyətlə inanmadım. Çünki o vaxtlar evi hökumət verirdi. Bunun üçün də ev növbəsinə durmaq lazım idi. Mən də növbəyə durmamışdım. Axırda da qayıtdı ki, "yaxın adamını itirəcəksən". Dediyi üç sözün üçü də düz çıxdı. Bir az keçdi atamı qəfil itirdim. Sonra "Nəsimi"yə təsdiq olundum və film ekrana çıxmamış mənə ev verdilər. Amma ondan sonra bir də falçıya getmədim. Birinci və axırıncı dəfə oldu.

**- "Nəsimi"yə dəvət alanda siz depressiyadan xəstəxanada yatırdınız. Niyə depressiyaya düşmüşdünüz?**

- Atamın qəfil ölümü mənə çox pis təsir etmişdi. Çünki bir həftə əvvəl rayona gedib görüşmüşdüm onunla. Heç bir problemi yox idi. Gənc idim. Həyatı hələ o qədər dərk etmirdim. Heç cür qəbul edə, barışa bilmirdim bu itkiylə. Və getdikcə məndə ruh düşkünlüyü yaranmağa başladı, sinir sistemim pozuldu, depressiya yarandı, dünyadan küsdüm. Mənə elə gəlirdi ki, daha yaşamayacam. Belə bir çətin anımda xəstəxanaya "Nəsimi"nin ssenarisini gətirdilər. O qədər ruh düşkünlüyüm vardı ki, o ssenarini oxumadım. Həm həvəsim yox idi, həm də heç inanmırdım. Deyirdim mən kiməm ki, mənə Nəsimi rolunu versinlər. Üstəlik, söz-söhbətləri də eşitmişdim. Danışırdılar ki, o rolu böyük aktyorlara verəcəklər. Heç ağlıma da



gətirmirdim ki, mənə verərlər. Üç gündən sonra filmin ikinci rejissoru gəldi. Soruşdu "oxumusan ssenarini?" Yalandan dedim hə, yaxşıdı. Sonra xəstəxanadan çıxdım. Onda Həsən Seyidbəyli bu idarədə, Kinematoqrafçılar İttifaqında işləyirdi. Mənə əsəb sistemi sanatoriyasına "putyovka" verdi. Amma yata bilmirdim orda. Tək qala bilmirdim, ümumiyyətlə. Elə bilirdim mənə nəsə olacaq.Saat 3-ə qədər prosedurları qəbul edirdim. Ondan sonra bura gəlirdim, bax bu otağa - əli ilə göstərərək - o stullar, stollar hər şeyə şahiddir. Başladıq bu otaqda məşq etməyə. Təxminən ay yarım əsas psixoloji anları olan səhnələri məşq etdik. Hamı təəccüb edirdi ki, o, rolu niyə məhz mənə verir. Birincisi, xarici görünüşüm onu qane etmişdi. Amma aktyor kimi bacarığımı bilmirdi. Sonra məşq etdik, gördü alınır və məni rola təsdiq etdi. Və o filmə çəkilmək məni sağaltdı. Onunla da depressiyam keçib getdi. Gördüm ki, mənim işim var, həyatda lazımam. Ard-arda nə qədər filmə çəkildim. Sonra mənə ev verdilər. İşə aludə oldum, xəstəlik də keçib getdi.

**- Bir səhər ayıldınız ki, siz artıq məşhur aktyor olmaqla yanaşı, bütün xanımların kumirinə çevrilmisiniz.**

- Hə (gülür). O vaxt küçəyə çıxa bilmirdim. Hamı yaxınlaşırdı mənə. İndi də bəzən belə sözlər eşidirəm. Bu yaxınlarda ayağıma görə xəstəxanaya getmişdim. Mən yaşda həkimlər deyirdi ki, "biz qızlar institutda oxuyanda sizə vurulmuşduq". Türkiyədə aeroportda məndən bir neçə yaş kiçik qadın yanımda oturmuşdu. O da dedi "xəbəriniz var ki, biz hamımız sizə vurulmuşduq?" "Nəsimi" doğrudan da çox təntənəli oldu. Bir ay ərzində "Nizami" kinoteatrının 3 zalında anşlaqla keçdi. Hələ belə bir hadisə olmamışdı. Nə qədər zənglər, məktublar gəlirdi mənə. Hətta Rusiyadan, Bolqarıstandan, Çexiyadan məktub göndərirdilər. Sevgi məktubları da vardı, bir aktyor kimi minnətdarlıq da. "Sovetskiy ekran" jurnalının üz qabığında şəklim çıxmışdı. Ünvanımı bilməyənlər məktubları o jurnalın redaksiyasına göndərirdilər, onlar da mənə. Bir kisəyə qədər məktubum vardı. Onların çoxunu hələ də saxlayıram.

**- Sevgi məktublarının məzmunu, adətən, necə olurdu?**

- Adətən yazırdılar ki, "...ilk baxışdan gözlərinizə vuruldum..." Bu tipli vurğunluqlar.

**- Bəs yoldaşınız necə reaksiya verirdi? Oxuyurdu hamısını?**

- Hə, oxuyurdu. Hamısını evə gətirirdim. Bəzən də poçtalyon gətirirdi. Əvvəl ona bir az pis təsir edirdi. Yolda gedəndə hamı mənə baxırdı. Təəccüb edirdi ki, bu nədir belə. Sonra adət elədi. Həm qısqanmağa da əsas yox idi axı. Çünki mən o məktublara cavab yazmırdım. İçimdə minnətdarlıq hissi var idi, əlbəttə. Amma bilirdim ki, bunların hamısı müvəqqətidir. Bəlkə ailəm olmasaydı, hansısa məktuba cavab yazardım, kimisə görüşə çağırardım. Ancaq mənim ailəm vardı və dəhşətli dərəcədə məşğul idim.



**- Yəni, evlənəndən sonra gizli sevgi macəranız olmayıb heç?**

- Vallah, yox, olmayıb. Bəzən filmlərdə birgə çəkildiyim qızlarla adımı hallandırırlar. Amma elə bir şey olmayıb. Sizə bir şey danışım. Mən 26 yaşında əməkdar, 34 yaşında xalq artisti adı almışam. O vaxt 26 yaşında əməkdar artist olmaq bir hadisə idi. Bir neçə ay katiblərdən, rəhbərlərdən, kolxozçulardan, kol-

lektivlərdən təbrik teleqramları aldım. Onda fəxri adlar təqdim olunanda "İnturist"də rəsmi banket keçirirdilər. Nazirlər Sovetinin birinci müavini Kamran Hüseynov orda məni yanına çağırdı, təbrik etdi. Dedi "oğlum, cavansan. Dünya görmüş adam kimi, məndən sənə bir əmanət. Birincisi, özünü içkidən gözlə. İkincisi, dostlarını seçəndə ehtiyatlı ol. Səni sındırmaq üçün, ya da paxıllıq hissi ilə çox şey edə bilərlər. Üçüncüsü də, özünü mütləq qadınlardan gözlə. Hansısa qadının felinə düşərsən, ailən dağılar. Qadından gələn bəlalar dəhşətli olur. Özünü ondan gözlə". Bu sözlər elə bil qulağımda sırğa kimi qaldı. Bu günə kimi o məsləhət qulağımda cingildəyir. O sözlərə istər-istəməz riayət etdim. Etməsəydim, çox şey ola bilərdi, ailəm dağılardı, işimə kimsə mane olardı. Amma mən özümü gözlədim.

**- Hansısa filmin çəkilişləri zamanı tərəf-müqabilinizə qarşı başqa hisslər keçirmisiniz heç?**

- Qarşılıqlı hörmət olub, amma məndə məhəbbətə çevrilməyib.

**- Sizdə olmasa da, tərəf-müqabilinizdə olub yəqin ki...**

- Nəsə olsa da, mənə deməyiblər.

**- Deməsələr də, hiss etməmiş olmazsınız.**

-Nə bilim, vallah. Belə də. O hisslər tərəf-müqabilimdə olub. Məndə də bəlkə müəyyən hisslər oyanıb. Sonra anlamışam ki, bu, işdir. Bəzisinin ailəsi olduğunu bilmişəm. Yəni, bizim izdivacımız alınan iş deyil. Bu cür hisslər yaranıbsa da, örtülü saxlamışam.

**- Bəs hansısa qadın açıq şəkildə gəlib sizə deyib ki, "yoldaşınla boşan, mənimlə evlən"?**

- Hə, olub elə şeylər. Ancaq mən çox hörmətlə yola salmışam, demişəm ki, bu, mümkün olan iş deyil.

**- Sizə görə intihar edən olmayıb ki?**

- Yox, intihara əl atmayıblar. Amma bir hadisə yadımdadır. Kinostudiyaya gəldim. Dedilər sizi bir yaşlı adamla uşaq gözləyir. Yaşlı adam danışdı ki, bu uşaqda psixi pozğunluq var. Həkimə də aparıblar, müalicə olunub. Məlum olub ki, Nəsiminin dərisinin soyulma səhnəsinə baxanda uşaq təşvişə düşüb, həyəcanlanıb və onda psixi dəyişiklik olub. Həkim bu-nu biləndən sonra məsləhət görüb ki, uşağı mənim yanıma gətirsinlər, görsün salamatam. Mənim evim onda kinostudiyanın yanında idi. Onları evə gətirdim. "Nəsimi" filmindən olan bütün şəkilləri uşağa göstərdim, söhbət etdim, corabımı çıxarıb ayağımı göstərdim ki, dərim soyulmayıb, salamatam. Çıxıb getdilər. Ondan sonra uşağın taleyindən xəbərim olmadı.



**- "Dədə Qorqud" filmində bir səhnə var. Beyrək xanımdan imtina edir. Səmimi deyək ki, həyatda əksər kişilər Beyrəyin etdiyini etməzdi. Bəs siz həyatda Beyrəyin yerində olsaydınız, hansı addımı atardınız?**

- Onu demək çətindir. Başıma elə bir hadisə gəlməyib axı. Gəlsəydi, bəlkə də özümü itirərdim və ona cavab verərdim. Amma rolda belədir ki, mən qızdan imtina edirəm, əsl məhəbbətim naminə. Əsl məhəbbəti olanlar həyatda da o cür edər. O anda adamda istər-istəməz şəhvani hisslər yarana bilər. Ancaq əsl sevgi hissi o şəhvəti boğur.

**- Bəlkə müsahibəni Nəsiminin yadınızda olan sevgi qəzəlindən bir beytlə başa vuraq?**

- Üzün məndən nihan etmək dilərsən, etməgil.
Gözlərim yaşın rəvan etmək dilərsən, etməgil.
Yandırırsan könlümü eşqində, məlum oldu kim,
Ani rüsvayi-cahan etmək dilərsən, etməgil.
Çünki eşqin məskənidir könlümün viranəsi,
Həsrəti-ani məkan etmək dilərsən, etməgil...

*Xəyalə Muradlı*
*21 Fevral 2012*

# İSMƏTİMİ NECƏ QORUDUM

*(hekayə)*

Əziz Nesin
*(Türkiyə)*



Çox şükür olsun ki, ismətimi tərtəmiz, toz zərrəsi qədər də ləkələndirmədən qurtardım. Bəyəfəndi, deyin görüm insan nə üçün yaşayır? İsmətli olmaq üçün yaşamır? Əlbəttə ki, ismətli olmaq üçün yaşayır. Bir qadın ismətini itirdi, üstəlik camaat da bundan xəbər tutdusa, sonra o qadın bir qəpiyə də dəyməz, heç kim onun üzünə baxmaz. Bəyəfəndi, elə bu səbəbə görə ismətimi çox yaxşı qorumuşam.

Onlar çox azğın ismət düşmənləriydi. Görüm onların gözü çıxsın, harada bir ismətli qadın görsələr, ona göz dikirdilər. Hələ saf bir ismət görəndə onu ləkələmək üçün əllərindən gələni edirdilər.

Bəyəfəndi, mənim başıma gələnlə, heç kimin başına gəlməmişdir. Hansı birini sizə danışım?! Bəyəfəndi, çox şükür ki, o vaxtlar keçdi, çox şükür ki, ismətimiz də azadlığa qovuşdu. Bəyəfəndi, vətənimiz, millətimiz var olsun...

Mənim də ismətimə göz dikdilər. Çox üzr istəyirəm, elə bilməyin ki, mən özümü tərifləyirəm, ancaq bircə onu deyim ki, mənim çox təmiz bir ismətim vardır. Əgər inanmırsınızsa, məni yaxından tanıyanlardan soruşa bilərsiniz. Bunları özümü reklam etmək üçün demirəm. Rica edirəm, məni adi reklamlar verən ticarət müəssisələri ilə bir yerə qoymayın. Məni hamı tanıyır. Haqqımda kimdən istəsəniz, soruşa bilərsiniz. Nə vaxt istəsələr, bonservis göstərə bilərəm.

«Fənər saray» klubunun solisti Çətin var ha, ondan neçə dəfə soruşmuşam:

– Çətin can, düzünü de, sən mənim nəyimi sevirsən?

O da mənə:

– İsmətini, anam, bacım, ismətini! – deyə cavab vermişdir.

Ondan sonra kişilərin ismət düşgünü olduğunu öyrəndim. Bəyəfəndi, mən tərtəmiz bir qızam. Hər səhər üzümü yuyur və üstəlik, bağışlayın, üzr istəyirəm, ayda iki dəfə Qalatasaray hamamına da gedib çimirəm. Kisə çəkən qadına bədənimi yaxşıca kisələdib, tərtəmiz oluram.

Qulaq asın, o ismət düşmənlərinə birinci dəfə rastlaşmağım haqda sizə danışım. Heç yadımdan çıxmır, bir gün axşamçağı Bəyoğlu küçəsiylə gedirdim. Bir də gördüm ki, bir nəfər dalıma düşüb. O adama bax, belə baxdım. Gözüm onu tutmadı. Dalıma düşən kişilər könlümə yatmayanda, ailə tərbiyəmə layiq olmadığı üçün heç səsimi çıxarmaram. Vücudu iki qəpiyə dəyməyən adamlar yanında insan nə üçün özünü tərbiyəsiz göstərsin? Düz demirəmmi, əfəndim?

Amma, o kişi söz atmağa başlayan kimi, özümü saxlaya bilməyib:

– Əfəndi, – dedim, – mən ismətli bir qadınam!

Necədir, yaxşı demişəm? Bəyəfəndi, mən heç kimdən çəkinmirəm. Allaha and olsun, mən hələ o vaxtlar hakim partiyanın siyasətinə qarşı müxalifətdə dururdum. Mən həmişə söz azadlığını müdafiə etmişəm.

Nə isə, başınızı ağrıtmayım, demə, həmin adam belə işlərdə təcrübəli imiş. Dalımca düşüb məndən əl çəkmədi. Yəqin ki, Abanoz küçəsini tanıyırsınız… Necə, tanımırsınız? Əzizim yaxşı, yaxşı, mənə kələk gəlməyin. Heç elə şey olar, kişi olasan, Abanoz küçəsini tanımayasan? Tanıyırsınız, tanıyırsınız… Bəyoğlunun yanındakı Abanoz küçəsini deyirəm. Hə, Abanoz küçəsinin başına çatanda ona dedim:

– Çox rica edirəm, küçəmizə çatmışam, daha dalımca gəlməyin.

O bu işlərdə çox bişkin imiş. Yenə də dedim:

– Məhəlləmizə çatmışıq, məni təqib etməyin.

Gör o, mənə nə dedi:

– Yavrum, mən səni özüm üçün deyil, bir bəyəfəndi üçün təqib edirəm.

Həəə, gördüm ki, bu adam belə işlərdə ustadır.

– Mənə bax, – dedim – mən sənin bildiyin qadınlardan deyiləm. Bəyəfəndinin məndən bir istəyi varsa, evin nömrəsini verim, qoy özü gəlsin.

O, bu sözümün müqabilində cibindən vizit vərəqəsini çıxarıb mənə verdi. Vizit vərəqəsini oxudum: Orada «Seksualitə produktoru» sözü yazılmışdı.

Bu sözün nə demək olduğunu başa düşmədim. Elə bildim ki, o, film çəkəndir. Mənim də kino artistliyinə uşaqlıqdan bəri son dərəcə həvəsim vardır. Film çəkilişini görəndə ürəyim gedir. Fikirləşdim ki, madam məni bəyənibdir, deməli, məni filmə çəkəcək. Əfəndim, mən haradan biləydim, mən ürəyi təmiz bir adamam. Dalıma düşən adam məni maşına mindirib bir yerə apardı. Orada başıma nələr gəldiyini sizə danışsam, vallahi təəccübdən gözləriniz bərələr və ağzınız sulanar. Ah, bəyəfəndi, ah, xalq bu adamların əlindən nələr çəkmədi...

Onlar mənə qutu-qutu cavahirat verdilər. Demə, bunların hamısı saxta imiş. Milləti aldatdıqları bəs deyil, məni də aldadıb namusuma toxunmaq istədilər. Amma yol vermədim, şükür allaha, ismətimi qoruya bildim.

Bir dəfə eşitdim ki, cavahiratların hamısı Yasnadaya göndəriləcək. Orada cavahiratlar qəsb ediləcək. Bunu eşidən kimi cavahiratı satmaq istədim və onların saxta olduğunu bu zaman öyrəndim. Bəyəfəndim, saxta cavahirat bağışlayıb namuslu bir qadını aldatmaq ayıb deyilmi? Birdən şeytana uyub ismətimin pozulmasına yol versəydim, onda nə olardı? Haramları olsun, onları görüm zəlil olsunlar, boğazlarında qalsın, məndən aldıqları ləzzət burunlarından piltə-piltə tökülsün. Onları görüm bu dünyada xar olsunlar...

Bəyəfəndi, bu danışdıqlarım o biri sərgüzəştlərimin yanında bir şey deyil. Sizə başqa bir qəziyyə haqqında danışım… Bəli, illərdən 1955-ci il, fəsillərdən qış fəsli, günlərdən cümə günü, vaxtlardan gecə yarısı idi. Heç yadımdan çıxmaz. Saat dördə on səkkiz dəqiqə işləyirdi. Pavilyonun bağlanmasına az qalırdı. Bu zaman birisi sallana-sallana salona girdi. Gəlib mənim oturduğum stolda əyləşdi. Daha doğrusu, stolda mənimlə bərabər oturanlar: «Buyurun, bəyəfəndi» – deyə onu çağırdılar. Demə, onlar mənə tələ qurublarmış. Mənim də heç bir şeydən xəbərim yox… Bəyəfəndi, mən məsum bir qadınam, yüksək cəmiyyətə on il olardı ki, düşmüşdüm. Onların gizli məqsədlərini haradan

biləydim?.. Mən bu mühitdə hələ təzə idim.

Həə, o biriləri ayağa durub, məni onunla yalqız qoydular. Onlar gedəndən sonra yanımdakı sırtıqlığa başladı.

– Bəyəfəndi, mənə sataşmayın, – dedim – mən sən deyən qadınlardan deyiləm. Çantanı başına elə çırparam ki, boyun bir qarış qısalar.

Hərif söz başa düşənə oxşamırdı. Məni qucaqlayır, oramı-buramı əlləşdirirdi.

Bəyəfəndi, nə axtarırsınız – deyə soruşdum.

O, gör mənə nə dedi:

– Əlcəyimi axtarıram.

– A kişi, mənim qoynum sənin üçün qarderobdur məgər?

Hərif lap cızığını aşdı. Gördüm ki, bir az da keçsə, ismətim əldən gedəcək. Yenə də dedim:

– Bəyəfəndi, bəyəfəndi, ismətimlə zarafat etməyin. Rica edirəm, əlinizi çəkin, yoxsa axırı pis olar. Mən hələ o zaman müxalifətçilərdən idim. Buna baxmayaraq o, marçamarçla məni öpüb:

– Bunun axırı nə olacaqsa, qoy olsun – dedi.

Dedim ki:

– Bəyəfəndi, camaatın içində öpməyin, ağıllarına başqa şey gələr.

Mənim necə qadın olduğumu camaat haradan bilir? Dost var, düşmən var. O, əməlli-başlı sərxoş idi. Əlini belimə atdı. Mən geri çəkildim.

–Niyə çəkilirsən, –deyə soruşdu –paltarının köhnəlməsindən qorxursan?

– Paltarım köhnəlməyinə köhnəlməz, ancaq qıdığım gəlir.

Sonra başladı mənə hücum etməyə, əl atmağa. Bir baxın, beş il üstündən keçib, hələ də bədənimdə dişlərinin yeri görünür. Buraya baxın, kürəyimin bu tərəfinə baxın. Görürsünüzmü necə dişləyib? Baxın, görün, az qalmışdı baldırımı qoparsın. Bu göyərmiş yerləri görürsünüz də... Heç cür keçib getmir.

Bu adamın əlindən qurtarana qədər nələr çəkdiyimi sizə deyib qurtara bilmərəm. Tam iki il mübarizə etdim.

Bəyəfəndi, azadlıq mübarizəsi asan olmur. Bədənimdə gördüyünüz bu yaralar, çapıqlar, hələ görmədiyiniz yerlərin yaralarını demirəm, o günlərin acı xatirələridir. Amma, ən axırda, çox şükür, ismətimi qoruya bildim.

Bir dəfə gecə vaxtı köhnə qurdlardan biri evimə gəldi. Mənim sevgi macəralarımı, məmləkətimizin ən yüksək transferli futbolçularıyla olan macəralarımı eşidib qəzəblənmiş və buna görə də evimə gəlmişdi.

Ona:

– Bəyəfəndi, – dedim. – Nahaq yerə zəhmət çəkmisiniz. Mən günortadan başqasına vəd vermişəm. Bir gəncə vurulmuşam. Eşqimə xəyanət edə bilmərəm.

O vaxt zəngin bir izmirli oğlana ərə getməyə hazırlaşırdım. Hətta altı ay idi ki, üzr istəyirəm, hamilə idim.

– Mən ancaq sevgilim ilə danışıram – dedim.

Əvəzində o mənə dedi:

– Bu sənin üçün bir fürsətdir əlinə düşüb, fürsəti fota vermə.

Bu adamın siyasi məhəbbət dəllalı olduğunu bilirdim. Onun vasitəsilə siyasi həyata atılıb, ölkə üçün faydalı adam ola bilərdim. Məqsədim heç də pis deyildi. Niyyətim bu ali məclisə düşmək, ölkə-

mizdəki antidemokratik gedişi onlara anlatmaq və vətənə xidmət etmək idi. Çünki yuxarıda oturanları kənardan mübarizə etməklə yıxmaq olmurdu. Onların aralarına girib içəridən yıxmaq lazım idi. Elə buna görə də, o hərifin təklifini qəbul etdim. Mənim səsim əzəldən çox gözəldir. Radiodan xalqa səsimi eşitdirmək istəyirdim. Nəhayət, arzuma çatdım. Onun nüfuzu sayəsində radioda müğənnilik etməyə başladım. Radioda tez-tez «Zurnası var gümüşdən, anlamıram bu işdən» mahnısını oxuyurdum. Bunun mənasını anlayan mənim nə demək istədiyimi başa düşürdü. Həqiqəti xalqa başqa cür demək mümkün olmurdu. Siz yəqin ki, radioda oxuduğum mahnılara diqqət vermisiniz: «zurnası var gümüşdən» deyərkən zilə keçməyimə, «anlamıram bu işdən» deyərkən isə səsimin titrəməsinə fikir vermisiniz. Ölkədəki inqilab, bunun sayəsində yarandı. Mən bu xidmətlərimə görə heç də xüsusi bir mükafat gözləmirəm. Hamısını halal edirəm. Ancaq, qəzetinizdə azadlıq fonunda çəkilmiş bir şəklimi versəniz, mənə bəs olar...

Həmin adamın əlindən nələr çəkdiyimi sizə deyib qurtara bilmirəm. Amma, çox şükür ki, ismətimi ləkələndirmədən bu işdən də qurtardım.

Sizə yalnız bunu deyə bilərəm ki, mən başqa «peşəkarlar» kimi, heç bir zaman eşqimi siyasət yolunda alətə çevirmədim. Nə eşqimi siyasətə alət etdim, nə də siyasəti eşqə.

Mənim fikrimə görə, hərəsinin öz yeri vardır. Sizə bir əhvalatı da danışım. Bir gecə məni saraya çağırdılar. Nə dedin, hansı saraya? Hansı saray idi? Hə, yadıma düşdü, Qalatasaraya!
– Mən saraya getmirəm, – dedim.

Onlar mənə:

«Mattuka əmiri Şeyx Kazulətdin Əssəid Həpdullah ölkəmizə qonaq gəlmişdir. Bu saat ölkəmizdə ondan hörmətli qonaq yoxdur. Bu ay bələdiyyə məmurlarına maaş vermək üçün büdcədə pul yoxdur. Bəyəfəndi Əmir həzrətlərini tovlayıb milli mənafeyimizə uyğun şəkildə yüzdə min faizlə borc almaq niyyətindədir. Əgər sən gəlməsən, bəyəfəndinin gəlməyi baş tutmaz. Bununla da dövlətlər arasındakı münasibətləri pozmuş olarsan. Bunun da ən azı on beş ilə qədər cəzası var, – dedilər.

– Həmişə belə vəzifələr mənim üzərimə düşür, – dedim. – Bu cür vəzifələrdən artıq yorulmuşam.

Məni himayə edən, radiodan mahnılar oxutduraraq məni «məşhuri-cahan» edən adam bunu eşidən kimi:

– Belə vəzifələr təkcə sənin boynuna düşmür, – dedi. – Biz səni ancaq Ərəbistandan böyük qonaqlar gələndə çağırırıq. Amerikalılar gələndə səni narahat etmirik. Biz iş bölgüsünə, ixtisasa riayət edirik. Hər kəsin görəcəyi iş ayrıdır.

Balıq əti olduğum üçün, məndən ancaq şərqli qonaqların məclisində istifadə edirlər. Kərkənəz Könül var ha, o da amerikalıların məclisinə dəvət edilirdi.

Mənim qorxum başqa şeydən idi. Bundan qabaq millətlərarası münasibətləri möhkəmlətmək üçün bir rəfiqəmi saraya çağırmışdılar. Həmin gün Hurayda əmiri ilə saziş bağlanmalı imiş. Səhərə yaxın sazişi rəfiqəmin göbəyində yazıb imzalayırlar. Rəfiqəm «olmaz» – deyə etiraz etmişdi. «Vay, sən vətən uğrunda göbəyini əsirgəyirsən?» deyə onu məzəmmət etmişdilər. Rəfiqəm də: «bu göbək vətənə fəda olsun?» deyib, razı olmuşdu. Lakin sonra saziş pozulmuşdu. Yəni saziş bağlayanlar sözlərində durmayıb imzalarını pozurlar, tüpürdüklərini yalayırlar.

Mənim qorxum bundan idi. Çünki mənim bədənimə toxunanda yaman qıdığım gəlir. Göbəyimdə sazişi imzalayarkən özümü saxlaya bilməyib gülsəm, siyasi müzakirənin ciddiyyəti pozulardı.

Vəzifə-vəzifədir deyib, saraya getdim. Mən bu xidmətlərimdən heç zaman qazanc axtarmamı-

şam. Salona girdim. Məni gözü götürməyənlər belə şayiə yayıblar ki, guya mən araq süfrələrində köhnə qurdların dizi üstündə oturmuşam. Bunlar dedi-qodudur. Qətiyyən düz deyil. Bəli, mən həmin gecə bu qurdlardan ancaq birinin dizi üstündə əyləşməli oldum. Bunun isə səbəbi bu idi ki, o gün orada boş kreslo yox idi. Başqa cür də mümkün deyildi. Onlardan biri:

– Gəl, quzum, otur! – deyə mənə təklif etdi.

Məni çağıran adam atam yerində, saçı-saqqalı ağarmış bir kişi idi.

Süfrə arxasında oturub içirdilər. Musiqi çalınırdı. Məndən də mahnı oxumağı xahiş etdilər. Mən də oxudum. Bu zaman Ərəb Şeyxi dedi:

–Quzum, sən «təhsisati məsturəsən? Nə üçün hər tərəfini örtürsən? Soyunsana. Mən onların gizli məqsədlərini haradan biləydim. Bir söz deməyib soyundum.

– Lap soyun – deyə əmr etdilər.

– Soyunmağına soyunaram, – dedim. – Amma elə etmək lazımdır ki, konstitusiyaya zidd gəlməsin.

O biri müğənnilər də soyundular. Rəqs başlandı. Salonda son dərəcə antidemokratik bir hava vardı. Hətta rəqqasələrdən biri striptiz oynayarkən o qədər antidemokratik soyundu ki, üstündə heç bir şey qalmadı. Demə, ali qonaqlardan biri «rentgençi» imiş. Rəqqasələr nə qədər soyunurdularsa da, o, qane olmurdu. Buna görə ölkə xəstəxanasından rentgen aparatı gətirib rəqqasəyə onun vasitəsilə tamaşa etdilər.

Mən neçə dəfə belə əyləncələrdə iştirak etmişəm. Lakin, bəyəfəndi, vallah belə əyləncələrdən iyrənirəm. O qədər iyrənirəm ki, daha çox şeyi açıb deyə bilmirəm. Neçə dəfə onlara belə əyləncələrdən iyrəndiyimi göstərmişəm. Ürəyim bulanır, sonra özün bilirsən də nə olur...

Bir gecə də, heç yadımdan çıxmaz, yenə belə məclislərin birində az qaldı ki, onlardan birisinin qucağına yıxılam, yəni əxlaqsızlıq girdabına düşəm. Xoşbəxtlikdən o adamın özü masanın altına yıxılıb qaldı və mən də onun qucağına düşməkdən xilas oldum. Amma mənim bir neçə rəfiqəm belə məclislərdə ismətlərini qoruya bilməyiblər.

Yenə də bir gecə, heç yadımdan çıxmaz, onlardan birisi:

– Fındıq sındırmaq istəyirəm, fındıq gətirin – deyə bağırdı.

Belə yaşlı qoca necə fındıq sındıracaq? Həəə, bir boşqab dolusu fındıq gətirdilər. Ancaq o kişinin ağzında fındığı qıracaq diş yox idi... O, bunu görən kimi bağırdı:

– Mənim dişlərim haradadır? Üst dişlərim yoxdur... Dişlərim kimdədir?

Qadınların üst-başını axtarmağa başladılar. Çox şükür ki, onun dişi məndə deyildi. Diş indi adını çəkmək istəmədiyim bir qadın müğənnidə tapıldı. Qadının da bundan xəbəri yox imiş. Sizdən çox üzr istəyirəm, bu qadın süni döş gəzdirir. Dişi itən bəyəfəndinin üst protez dişləri də həmin qadının süni döşünə ilişib qalıbmış. Protez dişlər qadının döşündə medal kimi sallanıb dururdu. Axı yazıq qadın bunu haradan biləydi... Yaxşı ki, Huvayda əmirinin yavəri bunu gördü və ingiliscə «Bu nədir?» – deyə soruşdu.

Bizimkilər o saat vəziyyətdən çıxdılar:

– Bu bizim ən yüksək ordenimizdir. Bunun adı «süni diş ordenidir».

Yavərin gözü hamının üstündə gəzirdi. Bəyəfəndinin boynuna ağ rəngli bir şey dolanmışdı. Yavər:

– Bəs bu nə nişanıdır? – deyə soruşdu.

– Bu da corab bağı nişanıdır.

Ərəb Şeyxi:

– Bu corab nişandan mənim də boynuma keçirtsinlər! Mən də istəyirəm-deyə tələb etdi. Müğənni qadınlardan biri corab bağını Şeyx həzrətlərinin boynuna keçirtdi. Ertəsi gün isə Şeyx həzrətlərinə fəxri hüquq professoru adı verildi.

Ay, bəyəfəndi, mən ismətimi qoruya bildim. Bunu necə bacardığımı məndən soruşun... Belə məclislərdə mənə çox zülm etdilər. Bəyəfəndi, mən demokrat ruhlu bir qadınam. Təzyiqə-zada heç bir zaman dözə bilmirəm.

Neçə dəfə onlara: Mən belə zülmə dözə bilmərəm, çox antidemokratik hərəkətlər edirsiniz! – deyə, bağırmışam.

Amma onlar, hakimiyyət sərxoşluğu bir yandan, içki sərxoşluğu da o biri yandan bizim səsimizi eşitməyiblər.

Bəyəfəndi, zülmün də bir hüdudu var. O hüdudu aşanda insan azadlığını əlinə almaq istəyir. Hətta bir dəfə zülmün ağırlığına dözə bilməyib bağırdım:

– Saçlarından utan!

O mənə:

-Mənim saçlarım xınalıdır, – dedi.

Bəli, bu köhnə qurdlar çoxlu xına işlədirdilər. Ona görə ölkəmizə ən çox idxal edilən şey xına ilə viski idi.

İndi o dəqiqələri xatırlayarkən elə bil ki, onları yenidən yaşayıram və zövqdən, pardon, dəhşətdən bədənim ürpəşir.

Bir dəfə onların birinə eynilə bu cür dedim:

– Bəyəfəndi, mən avam bir qızam, bəlkə də yaxşı başa düşmürəm. Əcəba, bu hərəkətləriniz demokratiyaya zidd deyil? Elə edək ki, konstitusiyanı ayaqlarımız altında əzməyək.

Bu sözümə qarşı o:

– Boşla görək, qoy kefimizi çəkək- dedi.

Belə bir şəraitdə, bir qadının öz ismətini mühafizə etməsinin nə qədər çətin olduğunu təsəvvürünüzə gətirin... Mən həmişə buna müvəffəq olmuşam.

Ümumiyyətlə, mənim o mühitdə olmağımın səbəbi, onları daxilindən yıxmaq idi. Hətta bir gecə onlardan birisi mənəvi böhran belə keçirtdi.

Əgər hamı mənim kimi çalışsaydı, onların heç birisi qalmaz, millət də xilas olardı. Bir gecə məni «Ankara Palasa» aparmışdılar. Oturduğum masaya üç nəfər yaxınlaşdı. Onlar məni dalbadal içirtdilər. Kim olduqlarını bilmirdim. Məni o qədər içirtdilər ki, huşumu itirdim. Ondan sonra nə oldu, nə olmadı, heç birini xatırlamıram. Səhərə yaxın gözümü açıb gördüm ki, desəm inanmazsınız, tanımadığım bir yerdə çıl-çılpaq yataqda uzanmışam. Bu əxlaqsızların tələsinə necə düşməyimdən heç xəbərim də olmayıb... Qəhrəman ordumuz üsyan etməsəydi, tələyə düşdüyümü hələmə-hələm anlamayacaqdım. Yaxşı ki, bu hadisə baş verdi və mən də xilas oldum. Buna görə ürəyim çox sakitdir.

*Azərbaycan dilinə çevirəni:*
O. Orucov

# EXERCISES FOR INTRODUCTION TO COMPUTER SCIENCES

*(excerpts from the book)*

**Etibar Rzazadeh,**
*Instructor, Khazar University*

*(Check yourself)*

The subject is a requirement for all university qualifications. According to tradition of Khazar University, the exercises list consists of three languages. It is compulsory to answer open questions in English. Grammar mistakes don't impact the results. However, names of computer terms, commands, attributes should be correct. It is also possible to add comments to answers in the first language.

The midterm exam list contains two parts - Theoretical (questions) and Practical (drawing scheme). The theoretical part consists of opening questions (3 or 2 points) and multiple choices (1 points). Only one answer should be selected for multiple choices. For drawing schemes you have to use some graphic editor. Draw schemes using standard shape tools (not pencil & not brushes).

The result of the task has to fit on one page of a WordPad file. Both parts together take 60-80 minutes. Use results of questions # 3 and 19 to check the elapsed time. Total maximum of the midterm exam is 20 points. If you get less than 60%, we highly recommend that you repeat the Introduction to Computer Sciences course.

**Midterm; Variant 1**




| | | | |
|---|---|---|---|
| 1.Load "PAINT" and draw scheme and insert current date and time | Загрузить «PAINT» и начертить рисунок | "Paint" – i yükləyin və şəkli çəkin | 2 |
| 2. Write down this unit's <u>names, measurement units and types</u> inside (Bold, Italic, Underline). | Вписать <u>имена, единицы измерения и типы</u> устройств внутри рисунка (Bold, Italic,Underline). | Qurğuların <u>adını , tipini və vahidlərini</u> şəklin içərisinə yazın.(Bold,İtalic,Underline). | 2 |
| 3.Create MS WordPad file under your department name, write down steps for this item, *<u>insert</u>* **date & time** and answer to the next questions: (text format is *Size-12,Times New Roman*) | Создать MS WordPad файл под ИМЕНЕМ КАФЕДРЫ, описать необходимые шаги, *<u>вставить</u>* **date & time** и ответить на следующие вопросы: (*Size-12,Times New Roman*) | Kafedranızın adı altında MS WordPad faylı yaradın, bunun üçün addımlar ardıcıllığını göstərin, **tarix və vaxt** *<u>daxil edin</u>* və aşağıdakı suallara cavab verin: *(Size-12,Times New Roman olmaqla)* | 1 |
| 4. Who are the first computer programmer and inventor? | Кто являются первыми - программист и изобретатель компьютера | İlk kompyuter ixtiraçısı və proqramçısının adlarını yazın | 1 |
| a. Bill Gates, Steve Jobs b. Bless Pascal, Leibniz c. N. Tusi, Lutfizade d. Charles Babbage, Ada Lovelace e. Alan Turing, Norbert Winner f. Iron Lady, Obama | | | |

| | | | |
|---|---|---|---|
| 5.Whiçh öf the föllöwing is nöt hardware? | Каторое из нижеследующих не является hardware? | Aşağıdakılardan hansı hardware deyil? | 1 |
| a)CPÜ ör ÜPS b)Magnetiç tape ör DVD ç)Assembler ör Delphi d)Printer ör Sçanner e)SVGA ör ICD | | | |
| 6. In whiçh kind öf memöry are löçated öpen files? | Где располагается открытый файл? | A ılmış fayl harada yerləşir? (qürğu) | 1 |
| a) RAM b) ROM ç) Index register d) Hard disk e) CD ROM | | | |
| 7. What is the meaning öf OLE? | Что означает OLE? | OLE nə deməkdir? | 1 |
| a) Objeçt löading and embedding b) Oriented langüage and ençöding<br>ç) Objeçt linking and entering d)Objeçt linking and embedding<br>e) Open Learning Exçhange f) Offiçe öf Legal Edüçatiön | | | |
| b) 8. Cöpy the paint piçtüre tö the right töp çörner öf the MS WördPad file. | ç) Перенести рисунок в правый верхний угол MS WördPad файла. | Şəkli MS WördPad faylının sağ yüxarı k nç n ə aparın. | 1 |
| 9. Whiçh in the föllöwing is a type öf çömpüter graphiç? | Типы компьютерной графики: | Aşağıdakılardan hansı kömpyüter qrafikasının n vləridir? | 1 |
| a. Bitmap, veçtör, fraçtal b. CRT, LCD, plasma ç. spreadsheet, database management, presentatiön d. LAN, WAN, MAN e. miçrö, mini, mainframe, süper | | | |
| 10.FIRST LINE in yöür text förmatting :<br>Fönt-Algerian, Size-14, Italiç. | Отформатировать первую строку в тексте:<br>Fönt- Algerian, Size-14, Italiç. | Mətnin birinçi sətrini förmatlaşdırın:<br>Fönt- Algerian, Size-14, Italiç. | 1 |
| 11. Write döwn höw yöü çan place yöür file in a new direçtöry. | Распишите, как можно расположить Ваш файл в новой директории. | Faylı yeni direktöriyada yerləşdirməyin qaydasını yazın. | 1 |
| a) Cöpy, New földer, Cüt b) Offis bütön, Save As, Wörd döçüment, Üp öne level ç) Cöpy, New földer, Paste d) Offis bütön, Save As, Wörd döçüment, Create new földer | | | |
| 12. What are höt keys för çüt, paste, and save çömmands? | Горячии клавищи для – çüt, paste, save: | çüt, paste, save kömandaları üçün isti d ym ələr: | 1 |
| 13 Write döwn parameters öf CPÜ, mönitör, RAM öf yöür çömpüter | Укажите параметры ЦУП, ОЗУ и монитора вашего компьютера? | Kömpyüterinizin MƏQ, mönitör və əməli yaddaşının parametrlərini yazın | 1 |
| 14 What defines çömpüter generatiön? | Что определяет поколение компьютера? | Kömpyüter nəslini nə m əyyən edir? | 1 |
| a. Speed, size, priçe b. basiç elements, arçhiteçtüre ,way öf üsing ç. öperating system langüage level, file system d. flexibility, high design, fashiönable e. PC IBM, Apple Maçintösh | | | |

**Final** of the subject contains two parts: Theoretical (questions - 25 points) and Practical (creation complicated table - 25 points). Both parts together take 80 minutes.

Both parts should be located in one MS Word page.

***1) Theoretical*** questions cover main computer ideas and habits of working in MS Word text processor. There is a linear equation for testing converting between number systems in each exam list (hexadecimal, binary and decimal). Result-X value should be decimal (traditional, human number system). For example: $AF_{16} = A*16^1 + F*16^0 = 10*16+15*1 = 175$; $1101_2 = 1*2^0+0*2^1+1*2^2+1*2^3 = 1+0+4+8=13$. Another calculation question checks knowledge of students about computer binary number systems. Consequently, kilo (thousand) in the computer's case is not ten to the third power ($10^3$) but two to the tenth power ($2^{10}$). So, base of binary number system (which applied on PC) is two. Questions about program features should be answered as sequences of key words which would consist of names of ribbons, tool bar, radio buttons and attributes. For instance: "How to change measurement unit of ruler in MS Word?" *Correct* Answer – *"Office button-Word options-advanced-measurement unit"*. Other types of

theoretical questions assist in checking knowledge of students about common principles, components, features, etc. of computer systems, basic networks, Internet, etc. Students can get parameters of a particular computer from the window of Dxdiag (enter on Run line) command or "My Computer" properties. Furthermore, students have to be aware about history of computers, computer categories, generations, types, and families.

**Final; Variant 1.**

*Create an MS Word file under your name and answer the following questions.*
*MS Word faylı yaradın və növbəti suallara cavab verin. Создайте MS Word файл под своим именем и ответьте на нижеследующие вопросы.*

| | | | |
|---|---|---|---|
| 1 | What is a Cömpüter File? | Что такое файл?<br>Fayl nədir? | 1 |
| | a) Fames appliçatiön süite<br>b) It is a çölleçtiön öf döçüments<br>ç) The sölütiön öf task, realized ön the langüage öf the prögram<br>d) Is the smaller named çölleçtiön öf data, as üsüally similar<br>e) It is süççessive, instrüçtiön by steps | | |
| 2 | Twö main types öf söftware? Shöw examples för eaçh öne. | Основные два вида söftware? Приведите примеры для каждого.<br>Software-nin iki əsas tipi? Nümunələrlə göstərin. | 1 |
| 3 | Whiçh are main fünçtiöns öf öperating systems? | Какие основные функции операционных систем?<br>Əməliyyat sistemlərinin əsas funksiyaları hansılardır? | 3 |
| 4 | Whiçh öf the föllöwing çharaçterize the speed öf çömpüter pröçessörs? | Который из нижеследующих параметров может характеризовать скорость компьютерных процессоров?<br>Aşağıdakılardan hansı kompüter prosessorlarının sürətini xarakterizə edə bilər? | 1 |
| | a) çömmands per day b) döt per inçh ç) Gigahertz d) sheet per minüte e) Giga byte f) PPM | | |
| 5 | Höw many Kbytes are in 4096 bytes? | Сколько Кбайтов в 4096 байте?<br>4096 bayt ne ə Kbaytdır? | 1 |
| | a) 16 b) 8 ç) 4 d) 2 e) 12 | | |
| 6 | Desçribe 3 basiç çömpönents and fünçtiön öf CPÜ. | Опишите основные функции и компоненты CPÜ.<br>CPÜ-nün 3 əsas qürqü və fünksiyalarını açıqlayın. | 2 |
| 7 | Höw many bytes are störed in 32 Mbytes primary störage ünit? (algörithm) | Сколько байтов размещаются на внутренней памяти компьютера в 32 Мбайт ?<br>32 Mbaytlıq əməli yaddaş ne ə baytdan ibarətdir? (algöritm) | 2 |
| 8 | The ALÜ perförms arithmetiç operations and ....? | ALÜ выполняет арифметические и .... операции ?<br>ALÜ hesablamadan əlavə hansı əməliyyatı yerinə yetirir ? | 1 |
| | a) çööling öperatiöns b) binary çalçülatiöns ç) lögiçal öperatiöns d) parity çheçks e) störes data | | |
| 9 | What is the smallest gröüp öf bits that çan be pröçessed tögether? | Как называется наименьщая группа битов обрабтывающисся вместе?<br>z ərində əməliyyat aparılan ən kiçik bit qrupu necə adlanır ? | 1 |
| | a) register b) çyçle ç) wörd d) byte e) file | | |
| 10 | Höw can you find the amöünt öf çharaçters in a document öf MS Wörd? | Как определить количество знаков в MS Wörd документе?<br>MS Wörd-də işarələrin sayını neçə tapmalı? | 2 |
| 11 | Höw tö çhange the measürement ünit öf the rüler in MS Wörd? | Как можно изменить единицу измерения на линейке в MS Wörd?.<br>MS Wörd prögramında xətkeşin 1 vahidini neçə dəyişməli?. | 3 |
| 12 | What is a flash memöry çard? | Что такое flash memöry?<br>Flash memöry nədir? | 1 |
| | a) Part öf CPÜ b) Ütility ç) Störage deviçe d) pöinting deviçe e) Sign | | |

| | | | | |
|---|---|---|---|---|
| 13 | What is the similarity between cöpy & cüt? | Что общего между Cöpy & Cüt? | | 2 |
| | | Cöpy & Cüt arasında nə mümilik var? | | |
| 14 | $X_{10} + 10101010_2 = AF_{16}$ $X_{10} = ?$ | | | 3 |
| 15 | What is a site? | Что такое сайт? | Sayt nədir? | 1 |
| | a) A set öf interçönneçted WebPages b) A gröüp öf netwörked çömpüters that share a çömmön çömmüniçatiöns address ç) interçönneçted gröüp ör system öf çömpüter süpplies d) a deviçe in a netwörk that handles message transfers between çömpüters e) A döçüment ön the Wörld Wide Web, mainly çönsi sting öf an HTML files | | | |
| 16 | Draw table fröm the appendix | Построить таблицу | Cədvəli əkin: | 25 |

***1) Practical part:*** The part contains a table which is mentioned in the appendix per each exam list. Students should draw exactly the same table with all elements of size and location. Borders type, equation, auto shape, clip art, text box, symbols, bullet and numbering must be chosen according to the table on appendix. Students may lose 3 points for each incorrect object on the table. Font effect, type face, type style are 1 point each. Draw text box for typing text, equation, or symbols on particular picture. After that, hide the border and background of the text box. While using "Form" ribbon resize the text into the picture (symbol). Please, count amount of columns, rows and merge appropriate columns and rows to draw the same table which is mentioned below. Pay attention to the hidden and changed lines.

Ultimately, find your score by calculating incorrect, unanswered answers. Subtract from total 25 ooints. If you get less than 30 points from both parts (theoretical, practical parts) (60%), you won't be able to pass the final exam ;-(.

PC | IBM[1]

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | **Hardware** | | | | | **Software** | | | |
| I. | *All physical components of computer* | | | | | *All of computer programs* | | | |
| II. | **ID** | **CPU** | **SD** | **Bus** | **OD** | **System** | | **Application** | |
| III. | | | | | | | | | Subject |
| IV. | | | | | | | C | | |
| V. | $(x+a)^n = \sum_{k=0}^{n}\binom{n}{k}x^k a^{n-k}$ | | *Insert, symbol, Wingding, Insert, Text box, Equation, resize* | | | | | | |
| VI. | | | | | | | | S | |
| VII. | | | | | | | | | |
| VIII. | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | |
| IX. | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | |
| | *Khazar*, Baku Azerbaijan* | | XƏZƏR | | | | Wednesday, 16 Janüary 2013 | | |

## Compare your result with correct answers

### Answer sheet

Variant 1 Midterm

***Friday, February 10, 2012, 4:14:07 PM***




1. Done
2. Done
3.Friday, 10 February 2012 11:16:01 AM
Start, Programs, Accessories, WordPad; Save AS, "Computer Sciences"
4. d. Charles Babbage, Ada Lovelace
5. c) Assembler or Delphi
6. a) RAM
7. d) Object linking and embedding
8. Done
9. a. Bitmap, vector, fractal
10. Done. (On Format bar) .
11. d) Offis button, Save As, Word document, Create new folder.
12. Ctrl + x, Ctrl + v, Ctrl + s
13. CPU – Pentium (R) Dual-Core 3.2 GHz; RAM – 4038MB;
Monitor – LCD, 17", 120 DPI, 1024x768 (32 bit)
14. b. basic elements, architecture, way of using
15. d. mouse
16. c. Dxdiag
17. c. Ctrl+Alt+Del
18. Done
19. Done

### *Final*




1: d. Is the smaller named collection of data; as usually similar. Compyuterdə adı olan ən kiçik verilənlər toplusu. Bir proqramın məhsulu olduğu üçün adətən birtiplidir.

2: System (Windows XP, Format) and Application (MS Word, Tetris). Sistem və tədbiqi programlar.

3: checking devises for preparation, managing all computer units, establish a user interface, managing of process (control queue of tasks).

ƏS-in əsas funksiyalarının icra ardıcıllığı: qurğuların hazırlığının yoxlanılması, kompyuter qovşaqlarının əlaqələndirilib idarə olunması, interfeys (kompyuter ilə istifadəçi arasında), kompyuteri əmrlər rejiminə keçirib programların növbəsinin yaradılması

4: C Gigahertz. Milyard herslərlə mərkəzi əməliyyat qurğusunun (CPU) surəti təyin olunur.

5: C $1kb=2^{10}=1024$ byte; 4096/1024 =4 Kb

6: Components - ALU, CU, Internal cash memory. Function – arithmetic logic operation, control of devices, keeping main needed information temporarily.

7: 32*1024*1024 = 33554432 bytes

8: c. logical operation (ALU hesabi – <u>məntiqi</u> yəni, riyazi əməliyyatları yerinə yetirir).

9: d – Byte.

10: Review ribbon + word count + character with spacing

11: Office button + word option + advanced + measurement unit

12: c - Storage device

13: both locate selected objects on clipboard.
Hər iki əmr ayırılmış obyekti *aralıq – bufer* (clipboard) yaddaşa yerləşdirir.

14: $X_{10} + 10101010_2 = AF_{16}$ $X_{10} = AF_{16} - 10101010_2$: $AF_{16} = A*16^1 + F*16^0 = 10*16+15*1 = 175$;
$10101010_2 = 0*2^0 + 1*2^1 + 0*2^2 + 1*2^3 + 0*2^4 + 1*2^5 + 0*2^6 + 1*2^7 = 0+2+0+8+0+32+0+128 = 170$:
$X_{10} = 175-170=5$ Bütün həddləri onluq say sisteminə keçirib adi xətti tənlik kimi həll edirik.

15: a. A set of interconnected WebPages. Eyni mövzu atrafında əlaqələndirilmiş veb səhifələr toplusudur.

*In gratitude to my dear students, especially to master's alumni of Royal Holloway University of London Mr. Elnur Rzazade for contribution to the preparation and checking of the article.*

# *FOLKNER VƏ ZAMAN:* SAAT VAXTI ÖLÇMƏYƏ QADİRDİRMİ?

***Sevda Salayeva,***
Xəzər Universitetinin əməkdaşı

Hər gün harasa tələsirik, hər yerdə tələsirik. Hətta metronun hərəkət edən pilləkənlərində üzü aşağı, üzü yuxarı tələsə-tələsə enib qalxırıq. Niyə? Çünki tələsirik. Əlbəttə, heç birimiz bunu vaxta qənaət üçün etmirik. Sadəcə, söz verdiyimiz vaxtda, söz verdiyimiz yerdə olmaq üçün bunu mexaniki şəkildə edirik. Həmin vaxt saatımızın əsiri olmağımız, onun tərəfindən idarə olunmağımız haqqında heç düşünmürük. Heç nə vaxtsa hansısa işinizi vaxtında bitirə bilməyəndə və saatın əqrəblərinə heç olmasa beş dəqiqə də sizə vaxt verməsini istəyəndə mexaniki, kiçik bir cihazdan asılı olmağınız ağlınıza gəlibmi? İstəsəniz saatın əqrəblərini beş dəqiqə geri çəkib, beş dəqiqəlik bir zaman qazana bilməzsiniz?! Xeyr! Çünki biz saatımızı idarə edə bilmirik, o bizi idarə edir.

Uilyam Folknerin əsərləri ilə tanışlığım Amerika ədəbiyyatını magistraturada daha geniş şəkildə öyrəndiyim zaman başladı. "Səs və qəzəb" əsərini oxuduqdan sonra isə əmin oldum ki, heç bir yazıçı "zaman"ı Folknerin ifadə etdiyi tərzdə ifadə edə bilməz. Dünya ədəbiyyatının çətin əsərlərindən biri hesab olunan dörd hissəli bu əsərdə Folkner "şüur axını"ndan, Freyd nəzəriyyəsindən çox ustalıqla istifadə etmişdir. Lakin mənim üçün romanın ən təsirli, ən düşündürücü və ən faciəvi hissəsi onun insan saatının əsirliyindən qurtarmağa çalışdığı ikinci hissəsidir. Ümumilikdə Kompsonlar ailəsinin faciəsindən bəhs edən bu əsərin ikinci hissəsi ailənin Harvard Universitetində təhsil alan oğlu Kventin tərəfindən nəql olunur.

Ümumiyyətlə, Folknerin "Səs və qəzəb" əsərinin üç zamanı var: birincisi, heç kəsdən asılı olmayan, sərbəst şəkildə axan astronomik zamandır. Bu zamanda hərəkət edə biləcəyin yolun bir istiqaməti var: o irəli gedir, burada heç nəyi geri qaytarıb, hadisələrin axarını dəyişmək mümkün deyil. Burada heç bir şey səndən asılı deyil. Sən zamanın hökmü ilə bu günü yaşayırsan və yalnız gələcəyə zamanın istədiyi axarla gedirsən.

İkinci zaman Folknerin romanının zamanıdır. Folkner "şüur axını" vasitəsilə bu zamanı irəli aparmağa, geri qaytarmağa nail olur, zaman ahəngdarlığını pozur. Sən Folknerin qəhrəmanı ilə keçmişə və gələcəyə gedirsən, istədiyin anda otuz il əvvələ sərbəst şəkildə qayıdırsan. Romanın zamanı Folknerin infantil obrazı Bencinin bir-birilə əlaqəsi olmayan fikirləri, xatirələri ilə ifadə olunur.

Üçüncü zaman isə Kventin obrazının zamanıdır. Daha doğrusu, onun əsiri olduğu, babasından ona yadigar qalan qol saatı ilə idarə olunan zamandır. Əsərin ikinci hissəsi, qeyd etdiyim kimi, Kventin tərəfindən nəql olunur ki, bu da 1910-cu ilin iyun ayının ikisinə- yəni Kventinin intihar etdiyi gündən bir gün əvvələ təsadüf edir. Mən deyərdim ki, Folknerin ən güclü obrazı Kompsonlar ailəsinin nəsildən nəslə keçən qol saatıdır. Bütün ikinci hissə boyu Kventin həmin saatı düşünür, onun əsirinə çevrilir. (Baxmayaraq ki, bu hissədə həm də Kventinin öz bacısına olan insest duyğuları özünə yer alıb, hissənin əsas mahiyyəti Kventin və onun zamanından ibarətdir.)

Kventinin zaman probleminin əsasını isə atasının saatı ona verərkən "saat" və "zaman" haqqında dediyi adamı ruhdan salan sitatlar olur. Kventin bütün hissə boyunca həmin sitatları beynində təkrar edir. "Ata deyirdi ki, saatlar

zamanı məhv edir. Zaman kiçik mexaniki əqrəblər vasitəsilə idarə olunduğu ana qədər ölüdür. Yalnız saat dayananda zaman həyata qayıdır." ("Because Father said clocks slay time. He said time is dead as long as it is being clicked off by little wheels; only when the clock stops does time come time to life" (p. 85 *The Sound and the Fury*, William Faulkner, Vintage International, 1984))

Kventinin zamanı ilə digər insanların zamanı arasında çox böyük fərq var. Kventinin zamanı onun qol saatındadır. O, getdikcə azalan zamanını qol saatının əqrəblərinin səsi ilə hiss edir. Bunu Kventindən savayı kimsə eşidə bilməz, eşitsə belə, zamanın axıb sona çatdığını Kventinin hiss etdiyi bir faciə ilə dərk edə bilməz. Çünki Kventin bu zamanın əsiridir. Kventin digər bir zamanı da dinləyir. Bu Harvarad Universitetinin dərsin başladığını və bitdiyini göstərən zəng səsidir. Bu təkcə Kventinin zamanı deyil, o səsi bütün Harvarad tələbələri eşidir və onların hər biri o zamana tabe olur, onun axarı ilə dərsə tələsirlər. Beləcə, Folkner zamanı həm ümumi, həm də xüsusi olmaqla iki yerə ayırır: ümumi zaman Harvard Universitetinin zəngi ilə simvolizə olunur və tələbələrin hər biri tərəfindən eşidilir, duyulur.

Xüsusi zamanın simvolu isə Kventinin saatıdır. Onu yalnız Kventin duyur. Və həmin zaman Kventinin faciəsinin əsasını təşkil edir.

Folknerin zaman haqqında əsas fikri öz əksini Kventinin saatını təmir etdirmək üçün saatsaz yanına gəlməsi səhnəsində tapır. Saatını qıran Kventin vitrində asılmış saatlardan hansının düzgün işlədiyini soruşanda, saatsaz cavab verməyə çətinlik çəkir. Bu suala əvvəlcə saat neçə olduğunu bildirməklə cavab vermək istəyir, lakin Kventin onun sözünü yarımçıq kəsir. Kventin ondan saatın neçə olduğunu yox, onlardan hansı birinin zamanı daha düzgün göstərdiyini təkrar soruşanda belə, düzgün cavab gəlmir. Bu dəfə o: " onlardan heç biri hələ qurulmayıb, əgər almaq istəsəniz..." İkinci dəfə də Kventin onun sözünü kəsir. O, saatlara baxır və düşünür: "Burada onlarla saat var. Onlarla müxtəlif zamanı göstərən və bir - biri ilə ziddiyət təşkil edən onlarla saat". Onların hansı birinin zamanı daha dəqiq göstərdiyindən o əmin deyildi. Və heç kim Kventini onlardan hansı birinin zamanı daha dəqiq ifadə etməsindən əmin edə bilməzdi. Bunu gözəl anlayan Kventin saatını təmirə qoymadan həmin dükanı tərk edir...

Kventin zamanı idarə edə bilmirdi. Zaman tamamilə onun nəzarətindən çıxmışdı və onun qol saatı vasitəsi ilə onu idarə edirdi. Hətta bu saat sındıqdan sonra belə öz səsi ilə Kventinə xatırladırdı ki, o hələ də zamanından asılıdır. Folkner Kventini saatın əsarətindən çıxarmaq üçün intihardan istifadə edir. Çünki saatı öldürüb zamanı həyata qaytarmağa çalışan Kventin buna nail ola bilmədi və o öz saatına uduzdu. Onun zamanını çərçivəyə salan saatı onu məğlub etdi. Beləcə, Folknerin qəhrəmanı intihar etdi.

Kim bilir ki, onun saatı zamanı digərinkindən beş dəqiqə tez göstərməklə düz işləyir? Və ya kim əmin ola bilər ki, onun saatı beş dəqiqə gec göstərməklə həqiqətən geri qalır? Kventin obrazı vasitəsilə Folkner demək istəyirdi ki, adi mexaniki cihaz olan saatlar zamanı ölçə bilməz. Hətta bir ailənin nəsildən nəslə ötürülən saatı da bir şəxsin təcrübəsində özünü doğrultmadı. Ona görə də, Folkner Kventinin saatını qırdı. Lakin Kventin üçün bu, çarə ola bilməzdi; çünki digər saatlar hər yerdə: Kventinin otağında, sinif otağında, dostunun qolunda – hər yerdə mövcud idi və o saatlar zamanı hələ də əsir saxlayırdı və Folknerin qəhrəmanı hələ də onlara təslim olurdu. Kventin obrazı ilə Folkner göstərdi ki, mexaniki adi bir cihaz olan saat zaman kimi geniş bir məfhumu ölçməyə acizdir və onu yalnız dar bir çərçivəyə salır.

Saatlar günümüzün ayrılmaz hissəsidir. Biz istəsək, ya istəməsək və ya onların zamanı nə dərəcədə düzgün ifadə etməsindən əmin olmasaq belə, biz saatımızla idarə olunuruq, işimizi ona uyğun qururuq və zamanımızı ona etibar edirik.




### *Hörmətli redaksiya!*

Bu rubrika açılandan bəri, demək olar ki, bütün söhbətlərə, baş verən bütün hadisələrə sanki bir lətifə müstəvisindən baxıram. Ona görə də, hamıya danışıqlarında və davranışlarında "ehtiyatlı olmağı" tövsiyə edirəm. Yoxsa, yazaram haaa! Mənim bu tövsiyəmi bütün universitet əhlinə çatdırmağınızı sizdən təvəqqe edirəm.

Molla Xəzər

## "Qoy elə bilsinlər ki, məni də axtaranlar var"

Əfqan Abdullayevin Xəzərdə işlədiyi vaxtlar idi. Onun əmisi oğlu, mənim də yaxşı tanıdığım Ağasəf universitetə gəlmişdi. O, çox zarafatcıl bir insandı və bəzən də Oruc müəllimi danışdırmaq, onunla zarafat etmək üçün buraya xüsusi səfərlər edirdi. Belə görüşlərdən biri idi, şirin-şirin söhbət edirdik. Birdən Oruc müəllim dedi: "Ağasəf, səndən bir xahişim var, mənim mobil telefonuma zəng elə, məni soruş". Ağasəf bir qədər çaşqın halda, "sənin telefonuna niyə zəng edirəm, sən ki, yanımdasan", – dedi. Oruc müəllim sözünə davam etdi. "Bilirəm e, yanındayam. Mən telefonumu qəsdən evdə qoymuşam. Sən indi zəng elə, məni soruş, de ki çox təcili Oruc müəllimlə danışmalıyam. Qoy arvad elə bilsin ki, mən də vacib adamam, məni də axtaranlar var".

## "Talışlar bunu bilməzlər"

Martın 6-da Təhsil fakültəsinin magistr tələbəsi, Xəzər Universiteti Direktorlar və Qəyyumlar şurası Sədrinin assistenti Marta Laurinin magistr tezisinin müdafiəsində iştirak edirdim. Marta xanımın tədqiqatı Azərbaycan dilində alqışlar və onların ingilis dilində (Amerika) qarşılığı məsələsinə həsr edilmişdi. Müdafiənin qızğın vaxtında Marta xanım alqışlardan bəhs edərkən "iştahlı olasan" ifadəsini də misal gətirdi. Bu zaman tezis komitəsinin üzvü Füzuli Bayat dilimizdə "iştahlı olasan" ifadəsinin işlənmədiyini qeyd etdi. Marta xanım isə həmin ifadəni Azərbaycan dilində alqışlara həsr edilmiş bir kitabdan götürdüyünü qeyd edərək öz fikrində qaldı. Füzuli Bayat, "hər hansı bir kitabda ola bilər, amma istənilən halda, Azərbaycan dilində belə ifadə işlənilmir" fikrini bir daha vurğulayanda Marta xanım gözlənilmədən soruşdu: "Siz haralısınız?" Füzuli müəllim bir qədər duruxdu və gülümsəyərək "mən Masallıdanam" dedi. Cavabında, "bu söz Masallıda olmaya bilər, amma Gədəbəydə var" deyə, Marta xanım onsuz da gözəl əhval-ruhiyyədə keçən müdafiə məclisinə bir qədər də rəngarənglik qatdı.

PS.

Sabahısı gün akt zalında 8 mart qadınlar bayramına həsr edilmiş tədbir zamanı Marta xanımı bir daha dünənki müdafiə münasibətilə təbrik etdim və söz yenə "iştahlı olasan" ifadəsindən düşdü. Marta xanım özünəməxsus şirin ləhcəsi ilə, bir qədər də nəşəli halda dedi: "İsaxan müəllim, dünən o müəllim, "Azərbaycan dilində "iştahlı olasan" ifadəsi işlənilmir" və sonra da "mən Masallıdanam" deyəndə, az qaldı deyəm ki,
"Talışlar bunu bilməzlər".

İsaxan İsaxanlı



# KİVİ NECƏ YEYİLMƏLİDİR?

*İçərisindəki zəngin qida maddələri və x  susilə C vitamini sayəsində bağırsaqların işləməsini tənzimləyən kivi həftədə 2-3 ədəd yeyildikdə hətta  sk  rəyi kəsir*

Kivi çox rahat həzm olunur. Qanda xolesterinin səviyyəsini aşağı salan və ürək-damar xəstəlikləri riskini azaldan bu meyvə xərçəng əleyhinə də çox faydalıdır. Kivi orqanizmi xüsusilə yoğun bağırsaq xərçəngindən qorumaqda çox effektivtivdir

Kivi necə yeyilməlidir? Meyvələrin çoxunda olduğu kimi, kivinin də ən faydalı hissəsi onun qabığının altındadır. Nə qədər incə şəkildə soymağa çalışsanız da, həmin bu faydalı hissə qabıqla birlikdə atılır. Buna görə də, kivinin baş hissəsi azca kəsilməli, daha sonra isə onun içərisi yumurta kimi qaşıqla yeyilməlidir.

Bərk kivi necə yumşaldılır? Kivi uzun müddət saxlana bilən bərk meyvədir. Yemək istədiyiniz zaman kivini daha yumşaq hala gətirmək isə olduqca sadədir. Bunun üçün başqa bir meyvədən, yəni almadan istifadə etmək lazımdır. Bazardan aldığınız kivilərdən yeyəcəyiniz qədərini 1 ədəd alma ilə birlikdə bir-iki gün saxlayın. Kimyəvi təsir nəticəsində kivi yumşalacaq. Beləliklə də, istədiyiniz zaman yumşaq kivi əldə edə bilərsiniz. Ancaq bu üsulla meyvə uzun müddət saxlanılarsa, kivilər çürüyəcək. Alma ilə kivi heç vaxt eyni soyuq otaqda saxlanmamalıdır. Bu yolla mövsümdə toplanan kiviləri 3-4 ay xarab olmadan saxlamaq mümkündür.

## İKİ YENİ QAN QRUPU

*ABŞ-ın Vermonte Universitetinin alimləri insanlarda iki yeni qan qrupu aşkar etmişlər*

Tədqiqatçılar qırmızı qan cisimlərinin üstündə tamamilə yeni qan qrupunun yaranmasına cavabdeh iki zülal tapmışlar. Bu kəşf mütəxəssislərin özlərini təəccübləndirmişdir, çünki indiyədək insanlarda yalnız 4 əsas qan qrupu müəyyən edilmişdi. Yeni qan qrupları "Langereis" (lenceris) və "Junior" (cunior), onların yaranmasını şərtləndirən zülallar isə ABCB6 və ABCG2 adlandırılmışdır.

Layihənin rəhbəri Brayan Ballif ümidvar olduğunu bildirmişdir ki, bu kəşf təbabətdə bir çox problemləri həll etməyə imkan verəcəkdir. Tədqiqatçılar yeni zülallardan istifadə edərək sağlam qadınlarda hamiləliyin kəsilməsinin səbəblərini müəyyən edə bilmişlər. Məlum olmuşdur ki, buna səbəb ana ilə dölün immunoloji cəhətdən uyğun gəlməməsidir.

B.Ballif qanköçürmə zamanı yeni qrup qanı olan adamlarda problemlərin yarana biləcəyini də söyləmişdir

Hazırda, ehtimal ki, 10-15 qan qrupu hələ də məlum deyildir. Bir qədər əvvəl bildirilmişdi ki, alimlər qanköçürmə zamanı təxminən 98 faiz adamlar üçün istifadə oluna biləcək universal qan sintezləşdirilməsini planlaşdırırlar. Bu qanı Bristol və Edinburq universitetlərinin alimləri gövdə hüceyrələrindən yaradırlar.

## AVİTAMİNOZLA MÜBARİZƏ

*Bu bəlaya qarşı səmərəli mübarizə aparmaq üçün gündəlik rasiona nə daxil etmək lazımdır?*

Avitaminoz yorğunluq, süstlük, depressiv vəziyyət, dırnaqların sınması və bəzən saç tökülməsi şəklində özünü büruzə verir. Avitaminozun əsas səbəbləri keyfiyyətsiz və tarazlaşdırılmamış qida, stress, əlverişsiz ekoloji vəziyyət, qış vaxtı günəş işığının az olması, fiziki və emosional gərginlik, siqaret çəkmə, spirtli içkilərdən ifrat istifadə, habelə soyuqdəymə xəstəlikləridir.

Dietoloqlar əhvalı pozan bu xəstəliyə qarşı tarazlaşdırılmış qida vasitəsilə mübarizə aparmağı tövsiyə edirlər. Orqanizmə lazım olan bütün komponentlər – zülallar, yağlar və karbohidratlar daxil olmalıdır. Quş və balıq ətindəki vitaminləri qorumaq üçün onları folqaya büküb bişirmək lazımdır. Menyuya mütləq A, B, C vitaminləri ilə zəngin olan duzlu kələm daxil edilməlidir.

## SU İNSANIN DAHA SAĞLAM YAŞAMASI ÜÇÜN VACİBDİR

*Tədqiqatlar göstərir ki, gün ərzində içilən suyun miqdarına görə hər iki nəfərdən biri orqanizmini susuz qoyur, yüngül susuzlama keçirir*

Orqanizmdə su azlıq təşkil etdikdə, qan qatılaşır və bu da orqanlara oksigen və qida maddələrinin az miqdarda daxil olmasına gətirib çıxarır. Alimlər müəyyən etmişlər ki, insan bədəninin 2/3-si sudan ibarət olduğu halda, biz çox az su içirik. Odur ki, hər bir insanın özünü yaxşı hiss etməsi üçün gündə 2,5 litr suya ehtiyacı vardır.

Susuz qalmaq maddələr mübadiləsinin ləng getməsinə səbəb olur. Bədəndə suyun miqdarı azaldıqca, orqanizmdəki yağların miqdarı və çəki artır. Lazımi miqdarda su içmək qan təzyiqinin qarşısını alır. Susuz qalmaq yorğunluğun başlıca səbəbidir. Bədəndə suyun azalması diqqətin pozulmasına yol açır. Bir stəkan su gecəyarı baş qaldıran aclıq hissini aradan qaldırır. Gündə 8-10 stəkan su içmək kürək və əzələ ağrılarını azaldır.Su uşaq əmizdirən analarda südü çoxaldır.

Daha çox su içməyin müxtəlif yolları vardır. Məsələn, gecə yatarkən daim yanınızda bir stəkan su qoyun. Oyanan kimi onu içməklə gününüzə başlayın. Su qrafininizə limon, xiyar, alma dilimləri ataraq suyunuzu dadlı edin. İş yerindəki masanızın üzərində mütləq bir şüşə su saxlayın. Evdə televizora baxarkən, paltar ütüləyərkən yanınızda bir stəkan su saxlayın. Həm də daim eyni həcmdə su içmək üçün gündə nə qədər su içdiyinizi ölçün. Mümkünsə, üzərində ölçü olan qrafindən istifadə edin. Daim su içməyi özünüzə xatırladın. Məsələn, hər saatdan bir zəngli saatı qurun, soyuducunun üzərinə su içməyinizi xatırladacaq qeydlər edin. Nəhayət, su içmək üçün susamağı gözləməyin.

## RAHAT HƏYATIN YAŞLA ƏLAQƏSİ

*Britaniya alimlərinin fikrincə, rahat həyat 45 yaşından sonra başlanır*

Uorvik Universitetinin alimlərinin fikrincə, insan yaşlandıqca, daha rahat olur. "The Daily Mail" yazır ki, orta yaş həddini keçdikdən sonra insanların səhhəti pisləşsə də, rahatlığın səviyyəsi artır. Britaniya alimləri ABŞ və Böyük Britaniyada on min adamın həyatını təhqiq etmiş və ümumilikdə sağlamlığın vəziyyətinin qiymətləndirilməsi, ağrıların olub-olmaması, sosial həyat və ruhi sağlamlıq kimi amilləri nəzərə almışlar. Tədqiqat göstərmişdir ki, rahatlıq hissi təxminən 45 yaşdan sonra qocaldıqca artmağa başlayır. Tədqiqatın rəhbəri Saverio Streincers demişdir: "Ehtimal ki, insanlar yaşlandıqca çətinliklərə daha təmkinlə qatlaşırlar. Gənclərdən fərqli olaraq yaşlılarda çətinliklərə sinə gərməyə kömək edən müdafiə mexanizmi yaranır. Bundan əlavə, yaşlılar həyatdan çox şey gözləmədikləri üçün iş və şəxsi həyatla bağlı stresslərə də təsadüfi hallarda düşürlər".

İnsan yaşlandıqca özünütəhlillə daha az-az məşğul olur. Özünütəhlil isə pis əhval-ruhiyyənin və əsəb gərginliyinin başlıca səbəblərindəndir.

## AMBİSİYALAR İNSANIN ÖMRÜNÜ QISALDIR

*Ən yaxşı ali məktəblərə daxil olmağa, ən yaxşı vəzifəni əldə etməyə çalışan şöhrətpərəst insanlar, əslində, heç də həmişə xoşbəxt həyat sürmələri ilə fəxr edə bilmirlər*

ABŞ-ın Notrdam Universiteti yanında Mendoza biznes-kollecinin professoru Timoti Cac bu paradoksu araşdırmağa çalışıb. Bu barədə "The Times of India" qəzeti yazır.

Xarakterin bu cəhətləri ən azından karyera nöqteyi-nəzərindən müsbət effekt verir. Lakin medalın o biri tərəfi də var. Cəhdlərə və uğurlara baxmayaraq, şöhrətpərəst adamlar başqalarından heç də xoşbəxt olmurlar. Bundan əlavə, onlar daha cavan yaşlarında həyatı tərk edirlər.

Professor 717 nəfər üzərində lap uşaq yaşlarından başlayaraq apardığı tədqiqatlardan sonra belə bir qənaətə gəlib. Alimi habelə onların təhsilinin nə dərəcədə sanballı olması da maraqlandırıb. Güman edildiyi kimi, şöhrətpərəst adamlar yaxşı ali məktəblərdə təhsil alır, daha nüfuzlu sahələrdə işləyir və daha çox qazanırlar.

Lakin məlum olub ki, bütün bunların hamısı onların həyatdan razı qalmalarına çox az təsir edir. Əslində isə şöhrətpərəst adamlar özlərini başqalarına nisbətən daha pis hiss edir, belə adamların vaxtından əvvəl həyatla vidalaşması hallarına daha tez-tez təsadüf edilir. Doğrudur, ekspert ölüm statistikasının arxasında nəyin durduğunu söyləməkdə çətinlik çəkib. Amma, görünür, adamlar karyeralarının xeyrinə seçim edərkən, çox zaman sağlamlıqları, qarşılıqlı münasibətləri və sosial əlaqələri barədə fikirləşmirlər.

## MOZAİKA

## İNGİLTƏRƏLİ RƏSSAMIN YADDAŞ FENOMENİ

*Stiven Viltşir dünyada qeyri-adi yaddaşa malik 25 nəfərdən biridir*



İngilis rəssamı Stiven Viltşir çəkdiyi bütün şəkilləri yalnız yaddaşına əsaslanaraq yaradır. Bir dəfə baxmaqla o, gördüyünü bütün xırdalıqlarına qədər yadda saxlayıb, təsvir edə bilmək qabiliyyətinə malikdir. Maraqlısı odur ki, 3 yaşında ikən həkimlər ona autizm diaqnozu qoymuşlar. 5 yaşına qədər danışmayan Stiven insanlarla çəkdiyi şəkillər vasitəsilə ünsiyyət qurmuşdur.

Yaddaşına əsaslanaraq yaratdığı çox irihəcmli şəkillərinə görə rəssama "canlı kamera" ləqəbi vermişlər. Stiven əsərləri uşaqlıqdan nəşr edilən yeganə rəssamdır. Onun "Drawing" kitabı ən çox satılan kitabların siyahısına düşmüşdür. Stiven Viltşir özü isə "Yağış adamı" filmindəki Dastin Hofmanın canlandırdığı qəhrəmanın prototipidir.

2003-cü ildən Londonda rəssamın daimi qalereyası fəaliyyət göstərir. 2006-cı ildə isə II Elizabet onu dünya incəsənətindəki xidmətlərinə görə ordenlə təltif etmişdir.

## ADINI GİZLİ SAXLAYAN XEYRİYYƏÇİ

*Ehtiyacı olanlara pul göndərən Robin Qud peyda olmuşdur*

Almaniyada maddi çətinlikləri olanlara zərflərdə pul göndərən anonim xeyriyyəçi peyda olmuşdur. Yerli əhalinin Robin Qud adlandırdığı xeyriyyəçi tərəfindən Braunşveyq şəhərinin sakinlərinə hazırda 190 min avro gəlmişdir.

İçərisində 10 min avro olan zərflər, əsasən, xeyriyyə şirkətləri və QHT-lərin ünvanlarına göndərilir. İlk belə zərfi Cinayət Qurbanları Fondunun üzvləri almışlar.

Sonrakı müddət ərzində belə zərfləri uşaq bağçası, xəstəxana, pulsuz yeməkxana və kilsə icması işçiləri öz poçt qutularında aşkarlamışlar. Köməyə ehtiyacı olan bu yerlər haqqında məlumatı Robin Qud "Braunschweiger Zeitung" qəzetindən əldə etmişdir.

Bir müddət əvvəl qəzetin redaksiyasına Robin Quddan məktub gəlmişdir. Puldan əlavə, zərfə 14 yaşında olan Tom adlı oğlanın faciəli qəzadan sonra əlil qalması haqqında məqalə də əlavə olunmuşdur. Uşağın soyadı markerlə xüsusilə işarələnmişdir. Redaksiya pulu Tomun anasına çatdırmışdır.

## 7 MİLYON DOLLARA YAXIN QİYMƏTİ OLAN QOL SAATI

*Hətta bütünlüklə brilyant daşlarla bəzədilmiş qol saatının qiymətinin 7 milyon dollar olduğunu təsəvvür etmək çətindir*



AzərTAc Rusiya KİV-lərinə istinadən xəbər verir ki, dünyanın ən bahalı çantalarının istehsalı ilə məşğul olan Mouawad brendi bu inanılmazı gerçəkləşdirmək qərarına gəlmişdir. Onun Dohada keçirilən Doha Jewelry and Watch Exhibition (DJWE) tədbiri çərçivəsində nümayiş etdirdiyi qol saatının qiyməti nə az, nə çox - düz 6,8 milyon dollardır. Saat brilyant qaşlarla bəzədilmişdir. Ağ qızıldan hazırlanmış saatın üzərində 223 ədəd brilyant vardır. Onların ümumi çəkisi 106,93 karatdır.

Saatın ümumi ağırlığı isə 108,9 qramdır.

## ƏN BAHALI ƏLCƏK

*Əfsanəvi Məhəmməd Əlinin əlcəkləri və təsvir olunduğu poster hərracda 1,1 milyon dollara satılmışdır*



Hərrac Las-Veqasda məşhur boksçunun 70 illiyinə həsr olunmuş Power of Love Gala tədbiri çərçivəsində keçirilmişdir.

Altı saatdan çox çəkən mərasim 11 milyon dollar gəlir gətirmişdir ki, bu da təəccüblü deyildir. Axı, tədbirdə iştirak etmək üçün azı 1,5 min dollar ödəmək lazımdı. Əldə olunan vəsait xeyriyyəçilik işlərinə, o cümlədən Klivlend klinikası nəzdində Lu Ruvo Beyin Sağlamlığı Mərkəzinin fonduna, habelə Məhəmməd Əlinin doğma Luisvill şəhərindəki (ABŞ, Kentukki ştatı) onun adını daşıyan mərkəzə yönəldiləcəkdir.

Tədbirdə 200-dən çox idman və şou-biznes ulduzu iştirak etmişdir. Diqqətəlayiq hadisələrdən biri superağır çəkidə Olimpiya çempionu və dünya çempionu Floyd Patterson ilə 1965-ci ildə döyüşə çıxdığı gün Məhəmməd Əlinin geyindiyi əlcəklərin və posterin satışa çıxarılması olmuşdur.

Hər iki nadir əşya Ultimate Fighting Championship idman təşkilatının baş direktoru Lorenso Fertitteyə nəsib olmuşdur.

## MƏMUR YOLUNU AZMASIN DEYƏ...

*Kişi məmurların öz arvadlarına xəyanət etmələrinin qarşısını almaq istəyi çox qəribə nəticə ilə başa çatdı*

İndoneziyanın Qorontalo vilayətininin qubernator administrasiyasının qərarı ilə bölgədəki bütün dövlət təşkilatlarında çalışan kişi məmurların maaşları bundan sonra arvadlarının adlarına açılmış bank hesablarına yatırılacaq. Qərarın məqsədi kişi məmurların öz arvadlarına xəyanətlərinin qarşısını almaqdır.

Qubernatorun mətbuat xidmətinin rəhbəri Rifli Katilinin dediyinə görə, məmurun cibində çox pul olanda "qudurur və öz üzərində nəzarəti itirir: Əminəm ki, qərarımız kişi məmurlar arasında "macəra axtarış"larına son qoyacaq".

Məmurların 90 faizinin bu qərarı dəstəklədikləri deyilir. Amma buna inanmaq çətindir...

## DÜNYADA ƏN HÜNDÜR TELEQÜLLƏ



*Tokioda dünyada ən hündür televiziya qülləsinin inşasının başa çatması ilə bağlı mərasim keçirilmişdir*

Martın 2-də Tokioda dünyanın ən hündür televiziya qülləsi - "Tokyo Sky Tree"nin inşasının başa çatması ilə bağlı mərasim keçirilmişdir. "Tokionun səma ağacı" adlandırılmış qüllənin tikintisinə 2008-ci ildə başlanılmışdı. Onun hündürlüyü 634 metrdir. Qüllənin birinci mərtəbəsində sintoist ayinlərinə əsasən təşkil olunmuş mərasimdə təxminən 70 nəfər iştirak etmişdir. Qüllənin ictimaiyyət üçün mayın 22-də açılacağı bildirilir.

## ƏN KİÇİK EV SATIŞA ÇIXARILDI

*"eBay" onlayn-auksionu dünyada ən kiçik evi satışa çıxarıb*



Evin sahəsi 6 kvadrat metrdən bir az çoxdur. Bu ev miniatür evlərin tikintisi üzrə ixtisaslaşmış "Tumbleweed" şirkəti tərəfindən layihələndirilib. Şirkət evə 38 min 997 dollar qiymət qoyub. Auksion aprelin 7-də başa çatacaq.

Təkər üzərində olan və daşına bilən evdə hamam, mətbəx və soyuducu var. Yataq yeri evin damında yerləşir. Evciyə su və elektrik xətti qoşmaq olar.

# İTALİYADA LEONARDO DA VİNÇİNİN İTMİŞ FRESKASI AŞKAR EDİLİB

*Florensiyanın ən məşhur binalarından biri olan Palasso Vekkionun zalında ekspertiza aparan mütəxəssislərLeonardo da Vinçinin itmiş "Anqiari altında döyüş" adlı divar naxışını aşkar etdiklərini bəyan ediblər*



Florensiyadakı mətbuat konfransında alimlər bildiriblər ki, məşhur rəssama məxsus freskanın izlərini Böyük Şura zalının ("Beşyüzlər salonu") şərq divarında Corco Vazarinin "Marçiano yanında döyüş" adlı divar naxışının altından tapıblar. Xatırladaq ki, dahi rəssam bu əsər üzərində 1503-1506-cı illərdə çalışıb.

Başda Leonardo da Vinçi yaradıcılığının tədqiqatçısı Mauritsio Seraçininin olduğu alimlər qrupu freskanı mikrokamera ilə təchiz olunmuş və Vazarinin freskasının müstəvisinin üzərinə bərkidilmiş xüsusi qurğu vasitəsilə aşkar ediblər. Həmin qurğu vasitəsilə götürülən nümunələr ekspertizaya göndərilib və nəticələr çox böyük ehtimalla Palasso Vekkioda "Beşyüzlər salonu"nda bu dahi rəssamın əsərinin yerləşdiyini göstərib.

# 45 EVİ OLAN QIZ

*Onun cəmi 14 yaşı olsa da, adı artıq ABŞ-ın daşınmaz əmlak bazarında tanınır*



AzərTAc ABC-yə istinadən xəbər verir ki, Uillou Tufano Birləşmiş Ştatların daşınmaz əmlak bazarındakı çox ağır böhrandan bəhrələnərək varlanmışdır.

Onun satın aldığı ilk ev beton bloklardan tikilmiş, iki yataq otaqlı kottec olmuşdur. Kotteci 2005-ci ildə 100 min dollara satın alan ailə onu 12 min dollara sata bilmirdi. Uillou da həmin evi 12 min dollara almış və qızın daşınmaz əmlak bazarında yüksəlişi belə başlanmışdır.

14 yaşlı qızın indi 45 evi var və onların hər birini də Uillou "su qiyməti"nə satın almışdır.

O demişdir ki, ilk evi satın almaq üçün pulların hamısını özüm yığmışdım. Satışa çıxarılmış evlərin təmizlənməsi ilə məşğul olur, anama yardım edirdim. Onlarla evi təmizləmişdim və aldığım pulları da xərcləməyərək bir yerə yığmışdım.

O, banklardan ipoteka kreditləri götürərək ev alan, amma ağır maliyyə böhranı ucbatından həmin evlərə görə kredit ödəyə bilməyən və bank tərəfindən evi əlindən alınaraq satışa çıxarılan insanların halını başa düşür, onları anlayır. Lakin bununla belə o deyir ki, bu biznesdir və mən də artıq bizneslə məşğulam.

14 yaşlı qız indiyədək evləri ucuz alıb baha satmaqla 45 evə yiyələnmişdir və hamısını kirayəyə vermişdir.

# ANA MƏSLƏHƏTİ OĞULU VARLANDIRDI

*Gənclərin əksəriyyəti kimi, otağını yığışdırmayan Rayan Kitçinq anasının məsləhətinə qulaq asandan sonra varlanmışdır*



O, otağını səliqəyə salaraq hər tərəfə səpələnmiş əşyalar arasında kiçik çek tapmışdır. Çeki zibil qutusuna atmazdan əvvəl yoxlamaq qərarına gələn Rayan onun uduşlu olduğunu anlamışdır.

AzərTAc "The Guardian"a istinadən xəbər verir ki, fevralın 8-də anası ilə birlikdə "Tesco" supermarketlərindən birinə alış-verişə yollanmış Rayana verilmiş çek lotereya bileti olmuşdur. İngiltərənin Midlotian səmtindəki Penikuikdə yaşayan Rayanın dediyinə görə, lotereyada 52 min 981 funt-sterlinq uddüğunu anlamışdır.

Rayan Facebook-dakı profilində yazmışdır ki, anam mənə otağımı yığışdırmağı tapşırmasaydı, bu pulları da udmazdım. Əladır. Deməli, ananin məsləhətlərinə qulaq asmaq adamı varlandırır.

## YENİDƏN AFFA PREZİDENTİ

*AFFA-nın martın 9-da keçirilmiş hesabat-seçki konfransında Rövnəq Abdullayev daha 4 il müddətinə AFFA prezidenti seçilib*



Öncə tədbirdə çıxış edən baş katib Elxan Məmmədov konfrans iştirakçılarına UEFA-nın təbrik məktubunu çatdırıb. Məktubda Azərbaycanda futbolla bağlı görülən böyük işlərdən danışılıb. Məmmədov konfransda 35 nəfərin səsvermə hüququna malik olduğunu və bunlardan 34-nün tədbirdə iştirak etdiyini bildirib.

Səsvermənin nəticələrinə görə R. Abdullayev ikinci dəfə AFFA-nın prezidenti seçilib. O, qarşıdakı 4 ildə də quruma rəhbərlik edəcək. Xatırladaq ki, R.Abdullayev həmin vəzifəyə yeganə namizəd idi. AFFA-nın İcraiyyə Komitəsinə seçkilər də keçirilib. Namizədliyi verilən 10 nəfər – Rauf Əliyev, Elşad Nəsirov, Ələkbər Məmmədov, Kazbek Tuayev, İsgəndər Cavadov, Mirkamil Rəhimov, Hafiz Məmmədov, Cahangir Əsgərov, Mahir Məmmədov və Elmar Qasımov yenidən quruma üzv seçilər.

Qeyd edək ki, Abdullayev və İK-nın üzvləri 2008-ci il martın 14-də vəzifələrinə seçilmişdir. Bunadək AFFA-nın 2 prezidenti - Fuad Musayevlə (1992-2003) mərhum Ramiz Mirzəyev (2003-2007) olub.

## AZƏRBAYCAN GÜLƏŞÇİLƏRİNİN AVROPA ÇEMPİONATINDA UĞURLU ÇIXIŞI

*Martın 12-də Serbiyanın paytaxtı Belqradda keçirilən güləş üzrə Avropa çempionatına yekun vurulmuşdur*



Çempionatda Azərbaycan güləşçiləri 2 qızıl və 4 bürünc medal qazanmışlar.

Qızıl medalı 60 kq çəki dərəcəsində mübarizə aparan sərbəst güləşçimiz Toğrul Əsgərov və yunan-Roma güləşi üzrə millimizin üzvü Elçin Əliyev (55 kq) qazanmışlar.

Bürünc medallara isə Aleksandr Qostiyev (74 kq, sərbəst güləş), Sona Əhmədli (59 kq), Nadya Sementsova (67 kq) və Şalva Qadabadze (96 kq, yunan-Roma güləşi) sahib olmuşlar.

Komanda hesabında Yunan-roma yığmamız 34 xalla Rusiya və Ukraynadan geri qalmaqla, 3-cü yeri tutub.

## AYIN ƏN YAXŞI FUTBOLÇUSU

*Azərbaycan Premyer Liqasının fevral ayı üçün ən yaxşı futbolçusunun adı açıqlanıb*



Qol.Az-ın məlumatına əsasən, PFL və Unibankın futbol klublarının baş məşqçiləri və kapitanları, həmçinin KİV nümayəndələri arasında aparılmış sorğunun nəticələrinə görə, "Qarabağ"ın yarımmüdafiəçisi Əfran İsmayılov fevral ayının ən yaxşı futbolçusu olub.

Martın 15-də UniPlaza-da ayın "ən yaxşı oyunçusu"nun mükafatlandırılması mərasimi keçirilmişdir.

# 2012-Cİ İL ÜÇÜN "XƏZƏR XƏBƏR" JURNALINA
# ABUNƏ ELANI

Xəzər Universitəsinin elmi-kütləvi və ədəbi-publisistik nəşri olan "Xəzər Xəbər" jurnalı ayda bir dəfə (avqust ayından başqa) 80 səhifə həcmində və qismən rəngli çap olunur.

Jurnalda Azərbaycan, türk, rus və ingilis dillərində tələbə həyatı, təhsil yenilikləri, elm, sənət, ədəbiyyat, mədəniyyət, turizm və idmana aid müxtəlif materiallar və maraqlı xəbərlər dərc olunur.

2012-ci il üçün "Xəzər Xəbər" jurnalına "Azərmətbuatyayımı" ASC-nin şəhər və rayon mətbuat yayımı şöbələrində, "Qasid" ASC-nin xətti ilə isə aşağıdakı ünvanlarda hər ayın 20-dək növbəti aydan etibarən abunə yazılmaq olar (fevral ayından ilin sonunadək abunə haqqı 20 manat, ilin həm birinci, həm də ikinci yarısı üçün 10 manatdır):

*"Azərpoçt" MMC-nin Bakı Mərkəzi poçtu (Üzeyir Hacıbəyov küçəsi, 36), tel.: 493-33-66*

*1 saylı poçt (İstiqlaliyyət küçəsi, 35, İçərişəhər metrosunun yanı, İqtisadiyyat Universiteti ilə üzbəüz), Tel.: 492-58-40*

*"Qasid" Açıq Səhmdar Cəmiyyəti (5-ci mikrorayon, Cavad xan küçəsi, 21, Memar Əcəmi metrosunun yanı, tel.: 493-14-06; 493-16-43*

"Xəzər Xəbər" jurnalına, həmçinin, "Metro-Servis" MMC-də abunə yazılmaq olar. Tel.: 434-01-33; 434-93-01

"Xəzər Xəbər" jurnalını pərakəndə satışda "Metro-Servis" MMC-nin Bakı metropoliteni stansiyalarındakı köşklərindən almaq olar.

***"Xəzər Xəbər"ə abunə yazılın!***
***"Xəzər Xəbər"i oxuyun!***
***"Xəzər Xəbər"ə yazın!***

# ATƏT BAKI OFİSİNİN RƏHBƏRİ İLƏ GÖRÜŞ ŞƏKİLLİ



Martın 1-də ATƏT-in Bakı ofisinin rəhbəri, səfir Koray Tarqay Xəzər Universitetində oldu. O, əvvəlcə universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı ilə görüşdü. Tərəflər ATƏT-in Bakı ofisi və Xəzər Universiteti arasında əməkdaşlıq məsələlərini müzakirə etdilər. Sonra Koray Tarqay universitetin tələbələri ilə görüşdü. ATƏT rəsmisini tələbələrə təqdim edən Hamlet İsaxanlı onun həyat və fəaliyyəti haqqında məlumat verdi. Tələbələr qarşısında "ATƏT - Azərbaycan: 20 ildə keçdiyimiz yol" mövzusunda çıxış edən səfir onların çoxsaylı suallarına da cavab verdi. Görüşün sonunda universitetin Siyasət İnstitutunun direktoru Baba Bayramlı maraqlı mühazirəyə görə səfirə minnətdarlıq bildirdi. Koray Tarqay Xəzər Universitetinin rektoru professor Con Rayderlə də görüşərək, fikir mübadiləsi apardı. Keçirilən görüşlərdə Koray Tarqayı ATƏT-in Bakı Ofisinin Mətbuat və İctimai İnformasiya Departamentinin rəhbəri Rəşad Hüseynov müşayiət edirdi.

# XƏZƏR UNİVERSİTETİNDƏ BAYRAM ŞƏNLİYİ

Martın 7-də Xəzər Universitetində 8 mart Beynəlxalq qadınlar günü münasibətilə bayram şənliyi keçirildi.

Universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı, prorektorlar Məhəmməd Nuriyev, Rafiq Əhmədov və digərləri qadın əməkdaşları təbrik etdilər, onlara cansağlığı, ailə səadəti və işlərində müvəffəqiyyətlər arzuladılar.

Bayram şənliyi musiqinin müşayiəti ilə davam etdi, iştirakçılar rəqs edib şənləndilər.





# NİZAMİ RAYON MƏKTƏBLİLƏRİ ÜÇÜN *"XƏZƏR"DƏ*

# SINAQ İMTAHANI

**Martın 3-də Xəzər Universitetində Nizami Rayon İcra Hakimiyyətinin dəstəyi ilə həmin rayonda yerləşən orta məktəblərin Azərbaycan və rus bölmələrində təhsil alan 9-cu sinif şagirdləri üçün pulsuz sınaq imtahanı keçirildi. İmtahanda rayonun 22 məktəbindən 700-ə yaxın şagird iştirak etdi. Şagirdlər Ana dili, riyaziyyat və tarix fənlərindən hazırlanmış 45 suala 1 saat yarım ərzində cavab verdilər. Gələcəkdə sınaq imtahanları 10 və 11-ci sinif şagirdləri üçün də təşkil ediləcəkdir.**



# YAHAD-IN UNUM TƏŞKİLATININ TƏMSİLÇİLƏRİ İLƏ GÖRÜŞ



Fevralın 21-də Xəzər Universitetinin Mərmər salonunda mərkəzi ofisi Fransada yerləşən "Yahad-in Unum" təşkilatının prezidenti Patrick Desbois, təşkilatın direktoru Marco Gonzalez, tədqiqatçı alim Andrey Umansky və Avropa Azərbaycan Cəmiyyətinin nümayəndəsi Rəqsanə Məmmədova tələbələrlə görüş keçirdilər. Onlar təşkilatları haqqında geniş məlumat verərək bildirdilər ki. bu günə kimi dünyanın bir çox ölkələrində "Yahad-in Unum"un fəaliyyəti ilə bağlı müxtəlif tədbirlər keçirmişlər.Azərbaycana gəlişlərinin əsas məqsədi yəhudilərlə bağlı tarixi hadisələri buradakı insanlara çatdırmaq və son yüz ildə Azərbaycan xalqının başına gətirilən faciələri dünya ictimaiyyətinə çatdırmaqdır. Onlar tələbələri maraqlandıran sualları cavablandırdılar. Görüşdə universitetin Xarici əlaqələr üzrə prorektoru Fərda Əsədov, İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli iştirak edirdilər.





# "XƏZƏR"İN TƏLƏBƏLƏRİ" İÇTİMAİ TV-DƏ



Fevralın 21 - də İctimai Televiziya Xəzər Universitetində xüsusi istedadlı tələbələrin konsertinin çəkilişini təşkil etdi. Konsert universitetin Mərmər salonunda keçirildi. Konsert proqramı Xəzər Universitetinin Musiqi və incəsənət departamentinin müdiri Zülfiyyə Sadıqovanın rəhbərliyi ilə hazırlanmış bir neçə xor tamaşası, qızlardan ibarət rəqs ansamblının ifasında bir neçə rəqs nömrəsi, piano və gitarada solo ifalar və şair Hamlet İsaxanlının və tələbələrin şeirlərinin bədii qiraətindən ibarət idi.



Həmin çəkiliş lentləri əsasında hazırlanmış "Xəzər" in tələbələri" adlı konsert proqramı martın 10-da İctimai TV-də yayımlandı.

# "DÜNYA" MƏKTƏBİ

**"Xəzər Xəbər"dərgisinin "Dünya"məktəbi üçün əlavəsi**

*Materialları "Dünya" məktəbinin müəllimi*
*Mədinə Karahan çapa hazırlamışdır*




Məktəbimizdə fənn aylarının keçirilməsi artıq ənənə halını alıb. Fevral ayı da kimya və biologiya fənlərinin payına düşdü. Bu aydakı iş planımızda şagirdlər tərəfindən referat və divar qəzetlərinin hazırlanması, VIII sinif şagirdləri arasında kimya fənni üzrə yarışma keçirmək də dururdu.

Yarışma Azərbaycanın dünyaca məşhur kimyaçısı Yusif Məmmədəliyev haqqında qısametrajlı filmin nümayişi ilə başladı. Yarışmanın aparıcısı (VIII$^{a}$ sinif şagirdi İlahə) müəllimləri və şagirdləri komandalar ilə tanış etdikdən sonra yarışmanın qaydalarını komanda üzvlərinin nəzərinə çatdırdı. Şagirdlər çox həvəslə sualları cavablandırdılar.

VIII siniflərdə kimya fənninin birinci tədris ili olduğu üçün yarışmanı keçirtməkdə əsas məqsəd şagirdlərdə özlərinə əminlik hissinin inkişaf etdirilməsi idi. Bu yarışmada iştirak edib, əldə olunan bilikləri nümayiş etdirən şagirdləri təbrik edirik.

Onu da qeyd edim ki, bu cür yarışmalarımızın davamı olacaq. Bu bir başlanğıc idi.

*IX$^{b}$ sinfinin rəhbəri,*
*kimya müəllimesi*
**Əliyeva Pərvin**

# "MƏKTƏB BİZİM DOĞMA LİMANIMIZDIR..."

*Müəllim üçün önəmli olan əmək qoyduğu, övladı kimi sevdiyi şagirdinin müstəqil həyata atıldıqdan sonra qazandığı uğurları izləməkdir. Bu gün sizə "Dünya" məktəbinin məzunlarından Novruz Cavadovu təqdim etmək istəyirəm: ağıllı, qarşısına qoyduğu məqsədə çatmaq üçün əzmlə çalışan, iradəli oğlandır. Liderlik bacarığı ilə həmişə sinif yoldaşlarına örnək olub. Yaxşı şahmat oynamağı bacarır. Özünə olan güvəni Novruzun xaricdə təhsil almasına yardımçı olub. Novruz ABŞ-da, Boston Universitetinin iqtisadiyyat fakültəsində təhsil alır. Tətilə gələrkən doğma məktəbini də yad etməyi unutmayıb. Aramızda olan söhbət çox səmimi alındı. Aldığı təhsil, yaşadığı ölkə ilə bağlı suallarıma cavab verərkən Novruzda baş verən yeniliyi, inkişafı gördüm. Elə Novruz da fərqdən danışdı, amma ölkəmizdəki, təhsilimizdəki fərqlərdən danışdı...*

*Novruz dedi ki, kənardan ölkəmizə diqqət etdikdə nə qədər yeniliklər, uğurlar qazanmışıq - onu daha aydın gördüm. Vətənimiz çox inkişaf edib.*



Soldan üçüncü: **Novruz Cavadov**

**-Bəs təhsilimiz?**

- Orta məktəb baxımından soruşursunuzsa, bizim təhsilimiz daha güclüdür desəm, səhv etmərəm. Bu baxımdan mən şanslıyam ki, orta məktəbi Azərbaycanda, Dünya məktəbində bitirmişəm. Ali təhsilə gəlincə, bu sahədə gənclərimizdə günah görürəm. Çünki gənclər ali məktəbə daxil olduqdan sonra onlarda oxumaq, irəli getmək hissi sanki zəifləyir.

**-Yaxın gələcəyə planların necədir?**

-Hələ ki, təhsilimi tamamlamaq haqqında düşünürəm. Unuversitetin mənə verdiyi praktik təcrübədən faydalanmaq istəyirəm. Ailəmə fayda vermək, cəmiyyətdə öz sözümü demək üçün tam ali təhsilə yiyələnməliyəm.

**- Məktəbimizə arzun?**

- Məktəbi bitirdikdən sonra başa düşdüm ki, məktəb həyatımda necə də böyük rol oynayıb, iz buraxıb. Məktəb bizim doğma limanımızdır, biz isə onun gəmiləri. O gəmilər ki, qasırğalı, təhlükələrlə dolu okeana çıxıbar. Əminəm ki, hər bir məzun bizə əziz olan, bizi bu həyata hazırlayan müəllimlərimizi unuda bilməyəcək. Və onu da bilirəm ki, məktəb yeni " gəmi"lər hazırlamaqda çətinik çəkməyəcək və dünyanın hər yerində ölkəmizi şərəflə təmsil edə bilən məzunları ilə fəxr edəcək.

*Məzunumuza uğurlar arzulayaraq ondan ayrıldım. Novruz kimi gənclərlə vətənimizin böyük uğurlar qazanacağına bir daha inandım.*

***Mədinə Karahan***



## HƏQİQİ DOSTLUQ MƏNƏVİ FƏDAKARLIQ DEMƏKDİR

*4 ª sinfində maraqlı bir qız təhsil alır. Adı Aylindir. Müəlliməsi İradə müəllimə Aylinin dost haqqında yazdığı inşadan söhbət açdı. Aylinin mövzuya münasibəti məni də maraqlandırdı. Gəlin birlikdə tanış olaq.*

***Mədinə Karahan***

"Dost arası sözsüz olmaz" cümləsindəki "dost" sözünü eşidərkən hər birimizin ağlına gələn dostlarımızdır. Mənim də çoxlu dostlarım var: Fidan, Nuray, Dinara və Zümrüd... Bu qızlar çox yaxşı qızlardır. Bəzən bir-birimizdən küsürük, amma dostluğumuz bunun öhdəsindən gələ bilir.

Dost o deməkdir ki, heç vaxt bir-birimizi incitməyək, boş bir şey üstündə küsməyək. Dost hər zaman yaxşı və çətin gündə insanın yanında olmalıdır. Dostluq etməyi hər adam bacarmır. Dostların xətası yadların doğrusundan yaxşıdır. Dost rahatlıq verən məlhəmdir. Həqiqi dostluq mənəvi fədakarlıq deməkdir. Dostluğun qolları bir- birimizi dünyanın bir ucundan o biri ucuna kimi qucaqlaya biləcək qədər uzundur. Dostların dar gündə tanındığını deyirlər, zənnimcə, onlar insanın xoş anlarında da tanınır. Dost elə bir insandır ki, sizin haqqınızda hər şeyi bilir, bununla belə sizi sevir... Mən çox şadam ki, mənim dostlarım da belə dostlardandırlar!

*Aylin*

## KARAOKE CONTEST



It is a tradition to have a month of Foreign Languages in our school every year. It was scheduled for December this time. Our English Department had a plan of variety activities for this month. It covered speaking, writing and karaoke contest, student conferences, professional development sessions, a charity bazaar and peer teaching.

I was leading the karaoke contest. To tell the truth, it was not so easy as I thought. I was to be more juridical and patient, as I was the judge. 15 classes competed in that contest. The students sang different karaoke songs in English. Perhaps not only the students and but the teachers also often joined the contestants and it was enjoyable. The competitors demonstrated their abilities in three parts: selection, semi-final and final. We had certain criteria to distinguish the best: **singing, feeling** and **performance**. During three weeks the students gathered at the entrance hall at tea breaks to listen to the songs.



At the end of the semi-finals there were two finalists: Class 4B and Class 7B. It was a great show. Each team did their best to be the winner with their outstanding performance in colourful costumes. According to the criteria, Class 7B received the highest score and shared the 1st place.

*Ayten Rustamova*
*English Teacher*



DÜNYA MƏKTƏBİ
Xəzər Universiteti "Dünya məktəbi"
2011-2012 – ci tədris ili üçün şagird qəbulu elan edir!
Sizin dünyaya açılan pəncərəniz!!!
WORLD SCHOOL
Beynəlxalq statuslu "Dünya Məktəbi"nin şagirdi ol
və bizimlə dünyanı kəşf et!
AZ 1122, Bakı şəhəri, Alatava küç, 2
Telefon: + (994 12) 431 57 81, 431 26 38
Faks: + (99412) 431 57 81




Universitetdə bakalavr pilləsində aşağıdakı ixtisaslar üzrə kadr hazırlığı aparılır:

**I qrup üzrə:**

- Kompüter elmləri
- Neft-qaz mühəndisliyi
- Kompüter mühəndisliyi
- İnşaat mühəndisliyi
- Riyaziyyat və informatika müəllimliyi
- Elektronika, telekommunikasiya və radiotexnika mühəndisliyi
- Kimya mühəndisliyi
- Biotibbi texnologiya mühəndisliyi

**II qrup üzrə:**

- Mühasibat uçotu və audit
- Maliyyə
- İqtisadiyyat
- Menecment
- Marketinq
- Biznesin idarə edilməsi
- Tarix və coğrafiya müəllimliyi
- Regionşünaslıq (regionlar üzrə)
- Turizm və otelçilik

**III qrup üzrə:**

- Azərbaycan dili və ədəbiyyatı müəllimliyi
- Xarici dil (ingilis dili) müəllimliyi
- İbtidai sinif müəllimliyi
- Filologiya (İngilis dili və ədəbiyyatı)
- Filologiya (Azərbaycan dili və ədəbiyyatı)
- Tərcümə (ingilis dili)
- Jurnalistika
- Politologiya
- Beynəlxalq münasibətlər

**IV qrup üzrə:**

- Kimya və biologiya müəllimliyi
- Psixologiya


Ünvan: Məhsəti küçəsi, 11.
(Neftçilər metrosunun yaxınlığında)
Əlaqə telefonları: (012) 408-81-78, (012) 421-68-11, (012) 421-79-27
Faks: 012 498-93-79
İnternet: http://www.khazar.org


XƏZƏR UNİVERSİTETİ BAKI 1991

# XƏZƏR UNİVERSİTETİ

Xaricdə ən çox tanınan,
xaricə ən çox tələbə göndərən,
xaricdən oxumağa tələbələrin ən çox gəldiyi,
xarici müəllimlərin ən çox işlədiyi ali məktəbdir.

Xəzər Universiteti Azərbaycanda yeganə universitetdir ki, onun tədris siyasəti və diplomları Avropa və Amerikanın aparıcı universitetləri tərəfindən tanınır.

Xəzər Universiteti dünyada ali məktəblərin reytinqinin müəyyənləşdirilməsi sahəsində nüfuzlu təşkilatların ("Webometrics" , "QS") reytinq cədvəllərindəAzərbaycan ali məktəbləri arasında həmişə birinci olmuşdur. "Webometrics" in son reytinq cədvəlində də (yanvar, 2012) dünyanın 20372 ali məktəbi sırasında yüksək liqada (ilk üçdə bir ) Azərbaycandan yalnız bir universitet - Xəzər Universiteti yer almışdır

***

*Xəzər Universiteti beynəlxalq əlaqələrin qurulması, beynəlxalq layihə və proqramlarda iştirak, dünyanın aparıcı universitetləri ilə müəllim və tələbə mübadiləsi və digər sahələrdə təsirli tədbirlər görməklə kadr hazırlığı sahəsində əsaslı nailiyyətlər əldə etmiş, böyük nüfuz qazanmışdır. Xəzər Universiteti bu gün həm Azərbaycanda, həm də Azərbaycandan kənarda özünəməxsus yeri olan, özünün xüsusi çəkisi olan bir ali təhsil müəssisəsidir.*

**Prof. Misir Mərdanov**
**Azərbaycan Respublikasının Təhsil Naziri**

## Universitetin maddi-texniki bazası

Məhsəti küçəsi, 11 ünvanda (Neftçilər metrosunun yaxınlığında) yerləşən 5 mərtəbəli tədris korpusunda, eləcə də ən müasir avadanlıqlarla təchiz edilmiş 7 mərtəbəli yeni tədris korpusunda, şəhərin mərkəzində Bəşir Səfəroğlu küçəsi, 122 ünvanda 4 mərtəbəli və Alatava 2 (Tbilisi prospekti, Mebel fabrikinin yanı) ünvanda 6 mərtəbəli yeni tədris korpuslarında geniş auditoriyalar, zəngin kitabxana, ən müasir kompüter mərkəzləri və s. ilə birgə yüksək keyfiyyətli təhsil almaq üçün hər cür şərait yaradılmışdır.

## Təhsil və karyera imkanları

Təhsildə fərqlənən tələbələr təhsillərini Amerika, Kanada, İngiltərə, Fransa, Almaniya, Hollandiya, İsveç, İtaliya, Türkiyə, Çin, Yaponiya və s. ölkələrin tanınmış universitetlərində davam etdirmək imkanı qazanırlar.

Xəzər Universitetində əsas təhsil dili ingilis dilidir. Bu, tələbələrin müasir dərsliklərdən istifadə etməsi, təhsillərini xaricdə davam etdirməsi, xaricdən gələn müəllimlərin effektli dərs deməsinə geniş imkan verir. Məzunlar və yuxarı kurs tələbələri xarici şirkətlərdə yüksək maaşlı işlərə dəvət alırlar, eləcə də dövlət təşkilatlarında və ölkəmizin qabaqcıl şirkətlərində işləmək imkanı əldə edirlər.

## Təhsil haqqının ödənilməsində güzəştlər

TQDK-nın keçirdiyi imtahanlarda yüksək bal toplayan tələbələrə aşağıdakı qaydada güzəştlər edilir. Imtahanlarda:
650-700 bal toplayan tələbələr təhsil haqqından tam azad edilir.
600-649 bal toplayan tələbələr təhsil haqqının cəmi 25%-ni ödəyir.
550-599 bal toplayan tələbələr təhsil haqqının 50%-ni ödəyir.
500-549 bal toplayan tələbələr təhsil haqqının 75%-ni ödəyir.

**Tələbələr təhsil aldıqları müddətdə əsgəri xidmətdən azaddırlar.**